# Addım atmağa hazırlaş!

**İqlim təşviqatı və iqlim tədbirləri üçün praktiki tövsiyələr**



**Addım atmağa hazırlaş!**
**İqlim təşviqatı və iqlim tədbirləri üçün praktiki tövsiyələr**

© Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF)
Azərbaycan, 2023 (ikinci nəşr)
İlk dəfə 2020-ci ildə nəşr edilmişdir.

**Müəlliflər:** Sara Konyak Qonsales və Emiliya Numer
**Texniki məsləhətçi:** Adrian Martinez
**Əlaqələndirmə:** Hanox Barlevi, İqlim Dəyişmələri və Fəlakət Riskinin Azaldılması üzrə Regional Mütəxəssis, UNICEF-in Latın Amerikası və Karib Hövzəsi üzrə Regional Nümayəndəliyi
**Dizayn:** Matias Daviron

**Azərbaycan versiyası:**
**Redaktə:** Firuzə Sultan-zadə, Pərvin Əzizli ("EkoSfera" Ekoloji-Sosial Mərkəzi İB)
**Redaktə işinə dəstək:** Rəna Şabanzadə (Gənc İqlim Elçisi), Günel Hacəliyeva (Gənc İqlim Elçisi)
**Dizayn:** Nərmin Orucova ("EkoSfera" Ekoloji-Sosial Mərkəzi İB)
**Tərcüməçi:** İsmayıl Cəbrayılov

Bu nəşr mənbəni (UNICEF) qeyd etmək şərtilə, yalnız tədqiqat, təşviqat və təhsildə istifadə üçün çoxaldıla bilər. Bu nəşr UNICEF-in əvvəlcədən yazılı icazəsi olmadan başqa məqsədlər üçün çoxaldıla bilməz. İcazələr üçün müraciətlər UNICEF Azərbaycana yönləndirilməlidir: baku@unicef.org

Bu nəşrdəki fikirlər müəlliflərin baxışlarını əks etdirir və UNICEF-in siyasətləri və baxışları ilə üst-üstə düşməyə bilər. UNICEF-ə məxsus olmayan hər hansı veb-sayta istinad edilməsi orada olan məlumatların və ya ifadə edilən fikirlərin düzgünlüyünün UNICEF tərəfindən təsdiqləndiyini ehtiva etmir.

Bu vəsaitin Azərbaycan dilində olan versiyası UNICEF Azərbaycan, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşəbbüsü çərçivəsində tərcümə, adaptasiya və çap edilmişdir.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi

AZE GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ

"EkoSfera" Ekoloji-Sosial Mərkəz İctimai Birliyi

unicef hər bir uşaq üçün

# Addım atmağa hazırlaş!

Yeniyetmələr və gənclər üçün iqlim təşviqatı və iqlim tədbirlərinə hazırlıqla bağlı praktiki tövsiyələr



# Ön Söz

“Biz, gənclər olaraq, cəmiyyətin müxtəlif sahələrində dəyişiklik elçiləriyik. Biz **iqlim dəyişmələri ilə mübarizə tədbirlərindən** kənarda qalmırıq: bizim səsimiz getdikcə daha çox eşidilir və biz **tam iştirak etmək** hüququ tələb edirik. Əslində, bizim iştirakımız dövlət siyasətinin hazırlanması prosesinin mərkəzində yer almalı olan bir hüquqdur.”

**Gənc iqlim fəalları üçün alətlər dəsti** planetimizin vəziyyətindən narahat olan və təşviqat apararkən və tədbirlər görərkən çətinliklərlə qarşılaşmış sizin kimi gənc fəallar üçün, gənclər tərəfindən yaradılmışdır.

Bizim məqsədimiz sizi **faydalı və məlumatlı iştiraka** hazırlamaq üçün iqlim dəyişmələri ilə qlobal, regional və milli səviyyəli mübarizə tədbirlərinin istiqamətini təsvir edən aydın, konkret, asan başa düşülən məlumatları bölüşməkdir.

Kitabçalar bir-biri ilə əlaqəlidir və onları ardıcıllıqla oxuya və hər mövzu üzrə biliklərinizi tədricən dərinləşdirə bilməyiniz üçün müvafiq qaydada dizayn edilib. Bundan əlavə, ehtiyaclarınıza uyğun olaraq, onlara ayrı-ayrılıqda nəzər sala bilərsiniz.

## Bura aşağıdakılar daxildir:

**İqlim dəyişmələri ilə mübarizə alətləri:** İqlim dəyişmələri ilə mübarizə üzrə qlobal məqsədlər və Dayanıqlı İnkişaf Məqsədlərinə doğru irəliləyişə nail olmaq üçün əsas alətlər, o cümlədən Paris Sazişi, milli səviyyədə müəyyən edilmiş töhfələr və digər alətlər.

**İqlim idarəçiliyi nədir?** İqlim idarəçiliyi və milli və beynəlxalq səviyyələrdə qərar qəbulu prosesi, o cümlədən İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC), onun tətbiqi və iştirak mexanizmləri barədə məlumat.

**Addım atmağa hazır olun!** Digər fəalların praktiki məsləhətləri və öz təcrübələrinə əsaslanan fikirləri iqlim gündəliyində iştirak etmək və ona təsir etmək üçün tələb olunan bacarıqlara yiyələnməyinizə kömək edəcək.

**Gənclər üçün Paris Sazişi:** Sazişin təfərrüatları, onun əhəmiyyəti və bütün maddələri sadə dildə.

**Gənclər üçün izahlı iqlim lüğəti:** Hər bir iqlim fəalının bilməli olduğu əsas anlayışlar və tariflər.

Bu kitabçada “gənclər” və “gənc insanlar” terminlərindən istifadə etdikdə, 15-24 yaşlı yeniyetmələr və gənclər nəzərdə tutulur.

| | | | |
|---|---|---|---|
| 0 - 17 | 10 - 19 | 15 - 24 | 10 - 24 |

# Mündəricat


6 Giriş

7 Yeniyetmə və gənclərin iştirakı barədə danışarkən nəyi nəzərdə tuturuq?

8 Özünüzü qorumaq və iştirakınızın təhlükəsizliyi üçün nəzərə alınmalı mühüm məsələlər

10 İqlim tədbirlərinə cəlb olunmaq üçün tövsiyələr

- 11 1. İştirak üçün ümumi tövsiyələr
- 15 2. İqlim dəyişikliyi ilə bağlı tədbirlərdə iştirak
- 20 3. İqlim dəyişmələri ilə mübarizə üzrə tədbirlərin təşkili
- 25 4. İqlim dəyişikliyi ilə bağlı panel müzakirələrində iştirak
- 29 5. İqlim məsələləri ilə bağlı müsahibələrdə iştirak
- 32 6. Yerli, milli və beynəlxalq qurumlarla görüşlərdə iştirak
- 36 7. İqlim siyasətləri və alətləri üzrə məsləhətləşmələrdə və icmallarda iştirak etmək
- 40 8. Kampaniyaların təşkili və kampaniyalarda iştirak
- 44 9. İqlim tədbirləri üçün təşviqat və lobbiçilikdə iştirak
- 46 10. Əlaqə şəbəkənizin gücləndirilməsi (şəbəkələşmə)
- 49 11. İqlim tədbirləri üçün ittifaqlar qurmaq

53 Psixi sağlamlığınızın qeydinə qalmaq üçün tövsiyələr

55 Əlavə resurslar

56 Mənbələr




# Giriş

Bu kitabçanın məqsədi iqlim dəyişikliyi ilə mübarizədə tam iştirakınıza kömək edəcək faydalı tövsiyələrlə təmin etməkdir. İnanırıq ki, hazırlaşmağın ən yaxşı yollarından biri sizin qarşılaşdığınız vəziyyətlərə bənzər hallarla artıq qarşılaşmış və bu istiqamətdə təcrübəyə malik olan digər yeniyetmələr və gənclərin məsləhətlərə riayət etməkdir.

Biz gənclər olaraq ən çox üzləşdiyimiz çətinliklərin siyahısını hazırladıq və iqlim tədbirlərində fəal iştirakınızı stimullaşdırmaq və kömək etmək üçün öz təcrübələrimizi və tövsiyələrimizi bölüşürük.

1 İlk öncə, yeniyetmələr və gənclərin iştirakı barədə danışarkən nəyi nəzərdə tutduğumuzu izah etməklə başlayacağıq.

2 Sonra isə qarşılaşdığınız vəziyyətlərdə sizin köməyinizə çatacaq bəzi ümumi tövsiyələr verəcəyik.

3 Gənc fəalların müəyyən etdiyi situasiyaların hər biri ilə əlaqədar, sizə faydalı tövsiyələr siyahısı və bir gənc və ya yeniyetmənin konkret təcrübəsi təqdim olunur.

4 Son olaraq, sizin üçün faydalı ola biləcək faydalı resursların siyahısını əlavə etdik. Bu vəsaitin hazırlanmasında biz onlardan dördünü əsas resurs kimi istifadə etdik.

- **Cəlb edilmək və eşidilmək! Yeniyetmələrin iştirakı və vətəndaş iştirakına dair rəhbər qaydalar.**
- **UNİCEF-in Gənclər üçün Təşviqat Bələdçisi.**
- **Təşviqat Alətləri Dəsti.**
- **Manual de İncidencia Juvenil [América Solidaria Gənclər üçün Təşviqat Bələdçisi].**



# Yeniyetmə və gənclərin iştirakı barədə danışarkən nəyi nəzərdə tuturuq?

Biz yeniyetmələr və gənclərin iştirakından danışarkən, onların fərdi və ya kollektiv şəkildə hansısa bir fəaliyyətdə iştirak etməsini, öz fikirlərini ifadə etməsini və onlara birbaşa və ya dolayı şəkildə toxunan məsələlərə təsir etməsini nəzərdə tuturuq.






Bəzən, iştirak **passiv** ola bilər və vəziyyəti dəyişməyə və idarə etməyə çalışmadan bir məsələni dinləmək və özünü məlumatlandırmaqdan ibarət ola bilər.

Digər hallarda, iştirak **fəal** ola bilər və bu zaman müəyyən bir problemin tədqiqinə, görə biləcəyiniz tədbirlərin müəyyənləşdirilməsinə və hazırlanmasına və özünüzün və ya digərlərinin davranışlarını dəyişmək üçün maarifləndirmə işlərinə cəlb olunmağınız nəzərdə tutulur. Məsələn, təşviqat fəal iştirakın bir forması olub, **insan hüquqları və uşaq hüquqlarını qorumaq və müxtəlif təşəbbüs və missiyalara dəstək göstərmək** üçün kollektiv mövqedən istifadəni ehtiva edir.

Yeniyetmələr və gənclərin iştirak imkanları getdikcə daha çox təşviq edilir. Buna baxmayaraq, bəzi hallarda iştirak sadəcə rəmzi xarakter daşıyır, manipulyasiya edilir və ya etibarsızdır. İştirak etməzdən əvvəl, **iştirakın faydalı, effektiv və etik olub-olmayacağını müəyyən etmək vacibdir.** Bunu etmək üçün aşağıdakıları nəzərə ala bilərsiniz:

Platforma: iştirak edəcəyiniz platformanın təhlükəsiz və inklüziv olduğundan və sizin öz fikirlərinizi formalaşdırmağınıza və ifadə etməyinizə imkan verdiyindən əmin olun.





Mövqe: fikirlərinizi sərbəst suratdə və istədiyiniz tərzdə ifadə edə bilib-bilməyəcəyinizi təsdiq edin.



Təmsilçilik: sadəcə öz mövqeyinizi təqdim etdiyinizi, yoxsa bütün gənclərin səsi kimi çıxış etdiyinizi müəyyən edin. İştirak üçün mexanizmin açıq və inklüziv olduğundan əmin olun.

Təsir: bölüşdüyünüz fikirlər və ideyalarla bağlı nə kimi tədbirlərin görüləcəyini soruşun (mənim iştirakım tədbirin nəticələrinə təsir edəcəkmi?).





Auditoriya: iştirak edənlərin sizə qulaq asacağından və fikirlərinizi nəzərə alacağından, iştirakınızın sadəcə rəmzi xarakter daşımadığından əmin olun.

Source: Lundy, L., 'Voice is not enough: Conceptualising Article 12 of the United Nations Convention on the Rights of the Child', British Educational Research Journal, vol. 33, no. 6, pp. 927–942, <www.tandfonline.com/doi/abs/10.1080/01411920701657033>, accessed 15 June 2021.

[1]United Nations Children's Fund, 'Engaged and heard! Guidelines on adolescents participation and civil engagement', UNICEF, New York, 2020, <https://www.unicef.org/lac/en/reports/engaged-and-heard>, baxış tarixi: 15 aprel 2021

# Özünüzü qorumaq və iştirakınızın təhlükəsizliyi üçün nəzərə alınmalı mühüm məsələlər

İştirak etməzdən əvvəl, atacağınız hər hansı addımın sizin təhlükəsizliyinizi riskə atmayacağından əmin olmağınız vacibdir. Bunun üçün, aşağıdakı tövsiyələri diqqətinə çatdırırıq.

**Konteksti təhlil edin.** Öz spesifik mühitinizi təhlil etmək vacibdir: ölkənizin sosial və siyasi mühiti necədir? Kimlər missiyanızın tərəfdarı və ya əleyhdarıdır və bu sizə necə təsir edə bilər? Fikirlərinizi, ideyalarınızı və təşəbbüslərinizi açıq bildirsəniz, hansı risklərlə üzləşə bilərsiniz? Özünüzü necə qoruya bilərsiniz? Əgər fiziki və ya psixi sağlamlığınızın risk altında olduğuna inanırsınızsa, öz təhlükəsizliyinizə xələl gətirmədən mövqeyinizi təqdim etmək üçün başqa hansı mexanizmləri nəzərdən keçirə biləcəyinizi düşünə bilərsiniz. Mürəkkəb bir mühitdə yaşayırsınızsa ruhdan düşməyin, lakin təhlükəsiz qalmaq üçün məhdudiyyətləri nəzərdə saxlayaraq, təhlükəsiz iştirak mexanizmlərini axtarın.

**İştirakınız həmişə sizin razılığınızla olmalıdır.** Heç kim sizi iştirak etməyə məcbur edə və ya fikirlərinizi manipulyasiya edə bilməz. Əgər bir fəaliyyətdə iştirak edirsinizsə, istədiyiniz vaxt iştirakınızı dayandıra bilərsiniz. Yaşınız 18-dən aşağıdırsa, unutmayın ki, valideyninizin və ya qanuni himayəçinizin razılığı olmalıdır. Bir hərəkat və ya təşkilata qoşulursunuzsa, razılıq vermək və sizdən gözlənilən fəaliyyətlər və tələblərin siyahısını istəmək də zəruridir.

Yaşınız 18-dən aşağıdırsa hüquqlarınızı bilmək üçün **"Uşaq hüquqları haqqında"** Konvensiyaya baxa bilərsiniz.



**İştirak edəcəyiniz fəaliyyətləri kimin təşkil etdiyini öyrənin.** Bunu etmək üçün aşağıdakı yoxlama siyahısından istifadə edə bilərsiniz:



Yoxlama siyahısı:
- Fəaliyyətin mənşəyini və əsaslarını dəqiqləşdirin.
- Fəaliyyəti təşkil edən təşkilatın ciddi və nüfuzlu təşkilat olduğunu dəqiqləşdirin.
- Fəaliyyəti təşkil edənlərin motivlərini nəzərə alın.
- "Yaşıl kamuflyaj"a cəlb olunmamaq üçün təşkilatın təqdim etdiyi dəstəyin növünü qiymətləndirin.

*"Yaşıl kamuflyaj" dedikdə, müəyyən tədbirin "yaşıl" və ya "ekoloji təhlükəsiz" tədbir kimi təqdim olunması, lakin əslində belə olmaması nəzərdə tutulur. Həmişə diqqətli olun, araşdırma aparın ki, bu cür fəaliyyətlərlə qarşılaşmayasınız..*

**Hüquqlarınızı bilin.** İstənilən vaxt, hüquqlarınızın pozulduğunu hiss etsəniz, özünüzü narahat və ya təhlükədə hiss etsəniz, bu barədə kimə xəbər verəcəyinizi dəqiqləşdirməlisiniz. Bu, iştirak etdiyiniz fəaliyyətin təşkilatçıları və ya başqa bir etibarlı şəxs ola bilər.

**Şəxsi həyatınızın toxunulmazlığını və təhlükəsizliyinizi qoruyun.** Sizin dürüstlüyünüzə xələl gətirə biləcəyini və ya etik dəyərlərinizə qarşı ola biləcəyini düşündüyünüz fəaliyyətə dəvəti qəbul etməyə bilərsiniz. Ev ünvanınız, tanıdığınız bir şəxsin ünvanı, iş və ya məktəbinizin ünvanı kimi həssas məlumatları kiminlə bölüşəcəyinizə diqqət yetirin.

**Hər zaman etibar etdiyiniz bir böyüyə güvənin.** Xüsusən də iştirakınız evdən kənardadırsa. Etibar edə biləcəyiniz şəxs və ya etibarlı çevrəni müəyyən edin və onlara bildirin ki, dəstəyə ehtiyacınız olsa, onlarla əlaqə saxlayacaqsınız. Yaşınız 18-dən aşağıdırsa, hər zaman bir yetkin şəxs tərəfindən müşayiət edilməlisiniz.

**Özünüzlə hər zaman fövqəladə vəziyyət üçün əlaqə kartı daşıyın.** Bu kartda sizin valideynlərinizin, etibarlı bir yetkin şəxsin, iştirak etdiyiniz tədbirin təşkilatçılarının və qaldığınız yerin yerli polisinin əlaqə məlumatları ola bilər.

**Şəxsi sosial şəbəkə hesablarınızı qoruyun və yalnız təhlükəsiz olduqda paylaşım edin.** Sosial mediada iştirakınızla bağlı məqamları və ya material bölüşmək üçün imkanlar ola bilər. Bunu etməzdən əvvəl həmişə buna qadağa olub-olmadığını soruşun. Yadda saxlayın ki, bəzi hallarda məlumatlar ictimaiyyətə ehtiyatla açıqlanmalıdır. İmkan daxilində öz şəxsi hesablarınızdan deyil, mənsub olduğunuz hərəkatın sosial şəbəkə hesablarından istifadə edin. Öz şəxsi hesablarınızdan istifadə edərkən, yad şəxslərin sizinlə təmasını önləmək üçün daha yüksək məxfilik parametrlərini təyin edin.

Bəzi gənc fəallar sosial mediada hətta 2 fərqli hesaba malik olur: fərdi istifadə və fəallıq üçün. Özünüzü qorumaq üçün bu üsuldan da istifadə edə bilərsiniz.

**Əyani formada keçirilən bir tədbirdə iştirak edirsinizsə, gəzmək üçün təhlükəsiz yollardan istifadə edin**
Tənha yerlərdən keçməmək və yol boyu təhlükəsiz nöqtələri müəyyən etmək lazımdır: məsələn, mağaza və ya polislərin olduğu ərazilər. Bununla yanaşı, öz həmkarlarınızı və ailənizi marşrutunuz barədə məlumatlandırın və telefonunuzun kifayət qədər balansı və enerjisi olduğundan əmin olun. Çünki itsəniz və ya istiqaməti qarışdırsanız, etibarlı bir şəxsə zəng edə və ya yerinizi bölüşə bilərsiniz. Siz həmçinin gediş edəcəyiniz nəqliyyat vasitəsinin qeydiyyat nişan nömrəsini qeyd edə və ya təqribi gediş müddətinizi bölüşə bilərsiniz.

**İştirakınız onlayn xarakter daşıyırsa, kiminlə əlaqədə olduğunuza fikir verin, xüsusilə söhbətlər təkbətək baş verirsə.** Yalnız tanıdığınız insanlarla söhbət etməyə çalışın, çünki insanlar heç də hər zaman onlayn mühitdə bəyan etdikləri şəxslər olmaya bilər. Virtual zənglər zamanı məlumatlar və ya məxfi informasiya bölüşmək tövsiyə edilmir.



# İqlim tədbirlərinə cəlb olunmaq üçün tövsiyələr

Artıq iştirak etməyin nə olduğunu və təhlükəsiz və faydalı iştirak üçün nə etməli olduğunuzu öyrəndiyiniz üçün meydana çıxacaq müxtəlif vəziyyətlərdə köməyinizə çatacaq bəzi tövsiyələri nəzərdən keçirək. Biz fəallar olaraq üzləşməli olduğumuz və tez-tez təkrarlanan vəziyyətlərin siyahısını müəyyən etdik.

Biz sizə bir çox hallarda kömək edə biləcək **ümumi tövsiyələr verməklə** başlayacayıq. Daha sonra isə gənc fəalların müəyyən etdiyi spesifik vəziyyətlər üçün daha konkret məsləhətlər təqdim edəcəyik.

Ümumi tövsiyələr — İştirak üçün **ümumi tövsiyələr**

**Tədbirlərdə iştirak** — **İqlim dəyişmələri** ilə bağlı **tədbirlərdə iştirak**

Tədbirlərin təşkili — İqlim dəyişmələri ilə mübarizə üzrə **tədbirlərin təşkili**

**Panellərdə iştirak** — İqlim dəyişmələri üzrə **panel müzakirələrində iştirak**

Müsahibələrdə iştirak — İqlim məsələləri ilə bağlı **müsahibələrdə iştirak**

**Səlahiyyətli orqanlarla görüşlərdə** — Yerli, milli və beynəlxalq **qurumlarla görüşlərdə iştirak**

Məsləhətləşmələr və icmallar — İqlim siyasətləri və alətləri üzrə **məsləhətləşmələrdə və icmallarda iştirak**



Əgər siz İqlim tədbirlərinə yeni qoşulursunuzsa, sizə “Əlavə resurslar” bölməsində qeyd olunan resursları oxumağı tövsiyə edirik. Bunlar aradan qaldırmaq istədiyiniz problemi müəyyən etməkdə, onu araşdırmaq, düzgün planlaşdırmaq üçün hansı addımlar atmalı olduğunuzu və iştirak və təşviqatla bağlı əsas anlayışları müəyyənləşdirməklə iqlim fəaliyyət planınıza başlamağa kömək edəcək.

**Təşkilat kampaniyaları** — **Təşkilat** və iqlim tədbirləri üçün kampaniyalarda **iştirak**

Lobbiçilik — İqlim tədbirləri üçün **lobbiçilikdə** iştirak

**Əlaqə şəbəkəsi** — **Əlaqə şəbəkənizin** gücləndirilməsi (şəbəkələşmə)

İttifaqların qurulması — İqlim tədbirləri üçün **ittifaqların yaradılması/** qurulması

**Psixi sağlamlıq** — **Psixi sağlamlığınızın** qeydinə qalmaq üçün tövsiyələr

# 1 İştirakla bağlı ümumi tövsiyələr

İnanırıq ki, bu siyahıya daxil olan tövsiyələr gənc iqlim fəalları üçün hər hansı vəziyyətdə kömək edə biləcəyinə inandığınız məsləhətlər daxildir.  Biz onları mərhələlərə böldük: iştirakınızdan əvvəl, iştirakınız müddətində və iştirakınızdan sonrakı mərhələ üçün tövsiyələr.

## Əvvəl

* Daha çox öyrənin! Əhatə ediləcək və ya müzakirə ediləcək mövzuları oxuyun və araşdırın. İştirakçılığı ehtiva edən platformalar iqlim dəyişmələrini və mürəkkəb xarakteri olan, yaxud nəzərdən keçirilməli çoxsaylı elementləri olan iqlim fəaliyyəti ilə bağlı məsələləri əhatə edə bilər. Öncədən müəyyən tədqiqat aparmaqla, siz hansı məlumatların mövcud olduğunu, bu sahədə nə kimi işlərin görüldüyünü, nə kimi irəliləyişin əldə olunduğunu (yerli ərazinizin, ölkənizin və ya bölgənizin nə etdiyini müəyyən edin) və əsas çətinliklərin nədən ibarət olduğunu öyrənə bilərsiniz. Bundan sonra siz daha yaxşı ideyalar, şərhlər və təkliflər verə biləcəksiniz. Kitablarda və ya internetdə tədqiqat aparmaqdan əlavə, siz bu sahə üzrə liderlər və ekspertlərlə danışa və öyrənmək istədiyiniz məsələlərə dair spesifik suallar hazırlaya bilərsiniz. Fikrinizi qətiləşdirmək üçün tapdığınız və ya əldə etdiyiniz məlumatları hər zaman digər mənbələrlə yoxlaya bilərsiniz.

- Mənbələrinizin etibarlı olduğundan əmin olun,
- Mənbədə müəllifin və ya məzmunu hazırlayanın adının olub-olmadığını yoxlayın,
- Təqdim edilən verilənləri və məlumatları yoxlamaq üçün ədəbiyyat siyahısının olub-olmadığını yoxlayın,
- Məqalədə oxuduqlarınızı ekspertlərin dedikləri ilə müqayisə edin,
- İnformasiyanın aktual olub olmadığını görmək üçün tarixi yoxlayın.

Bəzi seçilmiş məlumat mənbələri aşağıdakılardır:

- Hökumətiniz tərəfindən ətraf mühit və ya iqlim məsələlərinə dair hazırlanmış rəsmi hesabatlar
- İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panel tərəfindən hazırlanmış hesabatlar
- Dünya Bankının məlumatları.
- Nüfuzlu saytlardakı tədqiqatlar, məsələn:
- Google Scholar.
- Climate Watch Data.
- Ümumdünya Resurslar İnstitutu.
- Ümumdünya Səhiyyə Təşkilatı



**Ən mühüm mesajları müəyyən edin.** Öz çıxışlarınızı və ya töhfələrinizi daha yaxşı hazırlamaq üçün çatdırmaq istədiyiniz əsas mesajların dəqiq olması vacibdir. Əsas mesajlar sizin missiyanızın əlaqələndirici nöqtələrini formalaşdırır. Siz fürsətdən istifadə edərək, bunları iştirak etməyə dəvət edildiyiniz istənilən platformaya ötürə bilərsiniz. Əsas mesajlar hədəf auditoriyanı, missiyanızın yönəldiyi problemi və fəaliyyətə çağırış olaraq görməyi planlaşdırdığınız tədbirləri əhatə edir.

- Asan başa düşülən söz və ifadələrdən istifadə edin.
- İnsanların tez başa düşdüyü bir şeylə müqayisə edilə bilən və etibarlı, rəsmi mənbələrdən (məsələn, ekspert təşkilatları) əldə olunan məlumatlardan istifadə edin.
- Komandada işləyirsinizsə, əsas mesajların nələr olacağına dair həmkarlarınızla razılığa gəlin.
- Mesajlarınızı auditoriyanıza uyğunlaşdırın. Sizin ümumi əhaliyə ünvanlanan mesajlarınız tədbir görməyi tələb etdiyiniz hökumətə ünvanladığınız mesajla eyni olmayacaq.
- Əsas mesajlarınızı xatırlamağınıza kömək edəcək bəzi sözləri kağız parçası üzərində yaza bilərsiniz. Onları hər zaman özünüzdə saxlayın.

**Digər gənclərlə məsləhətləşin.** Bəzən gənclərin iştirakı üçün yalnız məhdud sayda imkanlar olur. Bu o deməkdir ki, cəmiyyətin müəyyən seqmentləri, məsələn, yerli etnik qruplar, əlilliyi olan şəxslər, miqrantlar, kəndlilər və uşaqlar kənarda qalır. Siz hətta bir fərd kimi müəyyən bir platformada iştirak etdikdə, çox zaman bütün gəncləri təmsil etmiş olursunuz.

- Müxtəlif mövqelərin, ən əsası isə kifayət qədər təmsil olunmayan şəxslərin mövqelərinin səslənməsini stimullaşdırın.
- Siz müəyyən platformada iştirak edən digər gənclərə rəy bildirə bilərsiniz. Sizin rəyiniz çox vacibdir və məsləhətləşmə prosesi vasitəsilə dolayı qaydada daxil edilə bilər.
- Siz məktəbinizdə və ya park kimi ictimai bir yerdə, eləcə də virtual şəkildə məsləhətləşmələr keçirə bilərsiniz.
- Dostlarınızı dəvət edin və mesajı sosial mediada paylaşın ki, məsləhətləşmə prosesindən daha çox insan məlumatlı olsun və iştirak edə bilsin.
- Müxtəlif fərdlərin birliklərini və ya qruplarını cəlb etmək və ya tapmaq vacibdir. Bu yolla mesajınız müxtəlif qruplara çatacaq.

**Digər gənclərin və yeniyetmələrin iştirakını təşviq edin.** Öz çıxışlarınızı və ya töhfələrinizi daha yaxşı hazırlamaq üçün çatdırmaq istədiyiniz əsas mesajları dəqiqləşdirin. Əsas mesajlar sizin missiyanızın əlaqələndirici nöqtələrini formalaşdırır. Siz fürsətdən istifadə edərək, bunları iştirak etməyə dəvət edildiyiniz istənilən platformaya ötürə bilərsiniz. Əsas mesajlar hədəf auditoriyanı, missiyanızın yönəldiyi problemi və fəaliyyətə çağırış olaraq görməyi planlaşdırdığınız tədbirləri əhatə edir.

**Öz icmanızda, yaşadığınız ərazidə və ya ölkədə səlahiyyətli orqanı müəyyən edin.** Ölkələr iqlim dəyişmələri üzrə səlahiyyətli orqanlar yaradırlar. Bu, çox zaman Ətraf Mühit Nazirliyi olur. Bundan əlavə, iqlim tədbirləri ilə bağlı funksiyası olan bələdiyyə orqanları və ya şöbələr də olur. Bu baxımdan, onlar yerli səviyyədə səlahiyyətli orqandır. Siz gənclər və yeniyetmələr üzrə müvafiq səlahiyyətli orqanı da müəyyən edə bilərsiniz. Çünki o, iqlim missiyanızla bağlı sizə dəstək göstərə bilər. Bunun üçün:

- Rəsmi əlaqə kanalları yaratmağa başlaya bilərsiniz.
- Rəsmi mediada və ya sosial şəbəkələrdə sizə yer ayrılmasını istəyə bilərsiniz.
- Ölkə mühitinizdən asılı olaraq, səlahiyyətli orqana yaxınlaşmaq çətin ola bilər. Bu halda siz UNİCEF və ya BMT-nin digər agentlikləri kimi vasitəçilər və müttəfiqlər müəyyən edə bilərsiniz. Cəmiyyətin digər sektorlarından təmsilçilər və ya təşkilatlar da ola bilər. Bura məsələn, yerli özünüidarəetmə orqanı, elm ictimaiyyəti, vətəndaş cəmiyyəti təşkilatları və özəl sektor daxildir.

## Müddətində

- **Özünüz kimi davranın.** Çox zaman iştirak edərkən həyəcanlı oluruq və deyəcəklərimizi düşünərkən özümüz olmağı unuduruq. Hər zaman yadda saxlamaq lazımdır ki, insanları sizin missiyanıza qoşulmağa məhz sizin şəxsiyyətiniz və əzminiz stimullaşdıracaq. Özünüz olmaq həm də hər zaman işlətdiyiniz söz və ifadələrdən istifadə etməyi, rahat hiss etdiyiniz formada geyinməyi ehtiva edir.
- **Vaxtınızdan səmərəli istifadə edin.** Öz müdaxilənizi daha yaxşı istiqamətləndirmək üçün müəyyən etdiyiniz əsas mesajlardan istifadə etməyə çalışmağınız önəmlidir. Həmçinin, gənclər və yeniyetmələrlə məsləhətləşmələrdən irəli gələn mesajları da daxil edin. Əsas mesajlardan kənara çıxmamağa çalışın - xüsusilə də vaxt məhdud olduqda (nitqinizin və sualların müddətlərini nəzərə alın). Məsələn, tədbirlərin sual-cavab hissəsi bura aiddir.
- **Sakitliyinizi qoruyun.** Bildiyimiz kimi, bu növ müdaxilələr hər zaman əsəb və stresə səbəb ola bilər. Lakin sakitliyi qorumaq vacibdir. Dərin nəfəs alın və əsas mesajlarınıza köklənin. Sizin missiyanız mesajları hədəfə çatdırmaqdır! Deməyi planlaşdırdığınız bir şeyi deməməyiniz və ya nitqinizdə nəyisə səhv deməyiniz normaldır. Siz dayana və heç bir problem olmadan cümlənizə davam edə bilərsiniz. Təcrübə qazandıqca daha yaxşı nəticə göstərəcəksiniz. Mümkün olduqda, auditoriyada tanış üz və ya şəxs axtarın. Belə olduqda, daha özünəinamlı hiss edəcəksiniz.
- **Hörməti qoruyan mühitlər yaradın.** İştirak mühitlərində hörmətin qorunması vacibdir. Siz hamı ilə eyni fikirləri bölüşməyə bilərsiniz, lakin fərqli düşünənlərə hörmət etmək vacibdir. Mübahisə yaranarsa, mübahisə tərəflərinin bir-biri ilə danışmasını təşkil edə və vəziyyət dəyişməzsə, mübahisənin şiddətlənməsini önləmək üçün onlardan məkanı tərk etməyi xahiş edə bilərsiniz.



İqlim dəyişikliyini inkar edən şəxslərlə qarşılaşdıqda nə etməli? Nəzərdə saxlamalısınız ki, mürəkkəb mühitlərdə iqlim gündəliyini müdafiə etmək məcburiyyətində deyilsiniz. Təhlükəsizliyinizi, düşüncələrinizi və vaxtınızı nəzərə alaraq, iştirak edəcəyiniz mühitləri özünüz seçmək hüququna maliksiniz. İqlim dəyişikliyinin inkar edildiyi kontekstlərdə iştirak etməyi seçsəniz, ciddi məlumat və informasiyalara əsaslanaraq müzakirə aparmağınız, mifləri və yanlış inancları ortaya çıxarmağınız vacibdir. Texniki terminlərdən istifadə etməyin və hər zaman hörmətlə yanaşın. Yadda saxlayın ki, mühiti istədiyiniz vaxt tərk edə bilərsiniz.



## Sonra

- **İzləmədə qalın.** Hər bir tədbir, konfrans, panel müzakirəsi və ya görüşdən sonra bir hesabat hazırlanır. Tədbirin nəticələrindən agah olmaq üçün bu hesabatı istəyə bilərsiniz. Bundan əlavə, onların sizin və ya digər gənclərin və yeniyetmələrin töhfələrini həqiqətən daxil edib-etmədiyini yoxlaya bilərsiniz. Daxil etməyiblərsə, hesabata məsul şəxsə və ya orqana e-məktub yazaraq bu töhfələrin daxil edilməsini istəyə bilərsiniz. Siz həmçinin yekun hesabatı və ya tədbirdən hasil olan əsas mesajları müzakirə etmək üçün digər gənclərlə görüşə bilərsiniz. Davamlılıq üçün növbəti tədbirlərin görülməsi iqlim dəyişikliyi ilə mübarizənin ən vacib elementlərindən biridir!

- **Öyrəndiklərinizi digər gənclər və yeniyetmələrlə paylaşın.** Hesabatı (varsa) və ya hər hansı digər resursu paylaşa bilərsiniz. Yaxud, öz qeydlərinizi və ya digər gənclər və yeniyetmələrin tədbir barədə xatırladıqlarını paylaşa bilərsiniz. Siz məlumatların paylaşılması üçün format yarada, bura tarixi, görüş yerini, iştirakçıların adlarını, gündəliyi və əldə edilən razılaşmaları əlavə edə bilərsiniz. Ən vacib mesajları yaymaq üçün öz sosial çevrənizdən istifadə edə və ya onları şəxsən sizə yaxın qruplarda yaya bilərsiniz. Öz baxışlarınızı onlara bildirməklə, digər şəxsləri də iştirak etməyə həvəsləndirə bilərsiniz və bu, həm də fikirlərini öyrənmək üçün məsləhətləşdiyiniz şəxslərin fikirlərinə cavab kimi çıxış edir.

- **İştirakınız barədə refleksiya edin.** Hansı cəhətlərinizi inkişaf etdirə biləcəyinizi bilmək hər zaman önəmlidir: məhz bundan sonra iqlim forumlarında iştirak getdikcə daha da asanlaşacaq.
  - Fəaliyyəti təşkil edən şəxslərdən, tanışlarınızdan və digər gənclərdən öz iştirakınız barədə rəy vermələrini xahiş edə bilərsiniz.
  - Siz həmçinin, digər gənclərin iştirakını qiymətləndirə bilərsiniz. Hörmət və empatiya ilə, konstruktiv şərhlər verməyi unutmayın.
  - Öyrəndikləriniz barədə refleksiya edin: bəlkə də onlar sizin heç vaxt eşitmədiyiniz və ya nəzərdən keçirmədiyiniz mövzuları qeyd edib. Müzakirə edilənləri düşünün və biliklərinizi artırmağa davam etmək üçün daha çox informasiya axtarın.
  - Tədbirlər, panel müzakirələri və müsahibələrin çox vaxt video qeydiyyatı aparılır və sosial mediada yayımlanır. Güclü və zəif tərəflərinizi müəyyən etmək üçün bu videoları izləyə bilərsiniz.

**Bunlar sizin iştirakınızı faydalı və təhlükəsiz etmək üçün bəzi ümumi tövsiyələr idi. İndi isə bəzi daha konkret tövsiyələr verəcəyik və sizin üçün faydalı olacağına ümid edirik. Başlayaq!**



# 2 İqlim dəyişikliyi ilə bağlı tədbirlərdə iştirak

## Qısa təsvir:

Hər bir maraqlı tərəfin iqlim gündəliyini təşviq etmək və mövcud çətinliklər və boşluqları aradan qaldırmaq üçün gördüyü tədbirləri müzakirə etmək, bununla yeni biliklər yaratmaq, birlikdə yol xəritələri çəkmək və ya təklif hazırlamaq üçün yerli, milli və beynəlxalq səviyyələrdə təşkil olunan tədbirlərin sayı durmadan artır. Biz bu platformalarda iştirak edə və onlara təsir edərək səsimizin eşidilməsini və qəbul edilən qərarların iddialı olmasını təmin edə bilərik. Adətən, bu tədbirlər (məsələn, seminarlar, sərgilər, konfranslar və qurultaylar) iqlim gündəliyi ilə məşğul olan çoxsaylı tərəfləri, məsələn, dövlət və özəl sektorları, elm ictimaiyyətini və vətəndaş cəmiyyətini bir araya gətirir. Bu tədbirlər getdikcə daha çox virtual formada təşkil olunaraq, yeniyetmələrə və gənclərə daha çox iştirak imkanları yaradır.

Gənc fəalların iqlim dəyişikliyi ilə mübarizə üzrə tədbirlərdən əvvəl və sonra, eləcə də bu tədbirlər zamanı yararlana biləcəyi bəzi tövsiyələri təqdim **edirik**.

## Tədbirdən əvvəl

- **Tədbirləri axtarın.** Siz tədbirləri internetdə və sosial mediada axtara bilərsiniz: sizin üçün maraqlı ola biləcək tədbirləri tapmağın bir yolu digər iqlim fəalları və ya iqlim hərəkatlarını izləməkdir. Siz həmçinin, təşkilatların, liderlərin və ya bu sahədə digər nüfuzlu şəxslərin veb-saytlarına baş çəkə, yaxud onları sosial mediada izləyərək, nə bölüşdüklərindən xəbərdar ola bilərsiniz. Bəzi nümunələr: YOUNGO, UNİCEF, UNFCCC, UNEP, UNDP, WWF və “Greenpeace”. İnternetə yaxşı çıxışınız yoxdursa, səlahiyyətli şəxslərdən və ya icmanızdakı digər nüfuzlu şəxslərdən şəxsən soruşa bilərsiniz.

- **Tədbirin təşkilatçılarının kimlər olduğunu müəyyən edin.** Maraqlandığınız tədbiri kimin təşkil etdiyini müəyyən etmək hər zaman yaxşıdır. İştirakla bağlı qeyri-əminliyiniz varsa, daha çox gənc və yeniyetmələrin iştirakı üçün yer istəmək üçün onlara yaza bilərsiniz.

- **İştirakınızı konkretləşdirin.** Təşkilat tərəfindən dəvət edilmisinizsə, tədbirin məqsədləri, necə keçiriləcəyi, müzakirə ediləcək mövzular və ya gündəlik və onların sizin iştirakınızdan nə gözlədikləri barədə bütün zəruri sualları verin. Nəzərə almaq lazımdır ki, bəzi tədbirlərdə iştirakçılığa digərlərindən daha çox şərait yaradılır.

- **Digər gənclər və yeniyetmələri tədbirdə iştirak etməyə dəvət edin.** Nə qədər çox gənclər və yeniyetmələr iştirak edərsə, o qədər yaxşıdır. Onlar öz baxış bucaqlarından daha çox töhfə verə biləcək və ya yeni biliklər əldə edəcəklər ki, bu da sizin iqlim missiyanız üçün faydalı olacaqdır.

## Tədbir zamanı

- **Necə rahat hiss edirsinizsə, o formada iştirak edin.** İştirak etdiyiniz bir tədbirdə sizə konkret bir rol təyin edilməyibsə, çıxış etməyi, suallar verməyi və ya sadəcə dinləməyi nəzərdən keçirə bilərsiniz.

- İştirakın hər iki yolu məqbuldur. Fikirlərinizi, qarşılaşdığınız çətinlikləri, təklif etdiyiniz həlləri və əsas mesajlarınızı təqdim etmək üçün fürsətlərdən istifadə edin. Orda olan hər kəs məhz bu cür qarşılıqlı təmaslar axtarışındadır.

- **Fikir mübadiləsi aparın. T**ədbirdə fiziki şəkildə iştirak etdikdə, bu, daha asan olur. Siz fikir mübadiləsi aparmaq üçün digər şəxslərə yaxınlaşa və tədbirin mövzusu ilə əlaqəli digər aspektlərə daha dərindən nəzər sala bilərsiniz. Əgər qrup video zəngləri və ya söhbətləri kimi münasib imkanlar varsa, bunu virtual formada da edə bilərsiniz. Siz, həmçinin, iştirak etmiş şəxslərə e-məktub yaza və ya sosial şəbəkələr vasitəsilə onlarla əlaqə qura bilərsiniz.

- **İştirak edən digər gənclər və yeniyetmələrin olub olmadığını öyrənin.** Onların tədbirin mövzusu ilə bağlı mövqelərini və gördükləri tədbirləri öyrənə bilərsiniz.

- **Ölkənizdəki və ya icmanızdakı liderlər, influenserlər və ya səlahiyyətli şəxslərlə əlaqə qurun.** Tədbir fiziki formada keçirilirsə, ölkənizin və ya icmanızın liderləri və ya səlahiyyətli şəxslərinə yaxınlaşmaq və bununla öz missiyanız üçün daha çox müttəfiqlər qazanmaq daha asan olacaq. Tədbir virtual formada keçirilirsə, siz artıq yaradılmış platformalardan faydalana və ya onların e-poçt ünvanını istəyə bilərsiniz.
- **Özünüzlə qeyd dəftəri aparın** və sizi ən çox maraqlandıran, ən çox tədqiq etmək istədiyiniz və barəsində öyrənmək istədiyiniz şeyləri (sizə tanış olmayan söz və ya anlayışları), eləcə də tanış olduğunuz şəxsləri qeyd edin. Tədbirdən sonra, çox vaxt tədbirin video qeydiyyatı paylaşılır və siz istədiyiniz hər şeyi qeyd edə bilməmisinizsə, ona yenidən nəzər yetirərək, qeydlər apara bilərsiniz.

## Tədbirdən sonra

- **İştirakınızdan maksimum yararlanın.** Fürsətdən istifadə edərək, öyrəndiklərinizin əsasında digər fəaliyyətlərinizi hazırlayın. Məsələn, əldə etdiyiniz informasiyaları ölkəniz, şəhəriniz vəya icmanızdakı digər şəxslərə ötürə bilərsiniz.



### Dekarbonizasiya və gənclərin rolu barədə öyrəndiklərim

Adım Karlos Nunyesdir. “Sustenta Honduras” təşkilatının üzvüyəm. Sizinlə Dekarbonizasiya üzrə Milli Dialoqda əldə etdiyim təcrübəni bölüşmək istərdim. Biz bu tədbirə bu sahədəki irəliləyişi öyrənmək üçün dəvət edilmişdik. Tədbirdə, həmçinin Hondurasda İqlim Dəyişikliyi üzrə Prezident Katibliyi (CLİMA+), Monterrey Texnologiya İnstitutu və Ostindəki Texas Universiteti arasında Əməkdaşlıq Sazişi imzalanıb. Ölkənin səlahiyyətli şəxsləri də tədbirdə iştirak edirdi.

Biz “EuroClima+” və Hondurasda İqlim Dəyişikliyi üzrə Prezident Katibliyinin dəvəti sayəsində tədbirdə iştirak edə bildik.

İştirakımız sizi iqlimlə bağlı fəaliyyətlərdə iştirak etməyə təşviq etmək üçün bölüşmək istədiyim bəzi şeyləri öyrənməyə imkan verdi:

•Gənclərin təşviqatı Milli Dekarbonizasiya Planının hazırlanması və yayılmasında əsas amillərdən biridir.
• Qərarlar və fəaliyyətlər elmə əsaslanmalıdır. Xüsusilə bu halda, Hondurasda istixana effektli qaz tullantılarının azaldılması, gənclərin iqlim fəaliyyəti sahəsində səlahiyyətlərinin artırılması ilə paralel olaraq elmi tədqiqatların təşviqi.
• Dekarbonizasiya iddialı bir prosesdir və bu danışıqlardan heç kimin, xüsusən də gənclərin kənarda qalmaması vacibdir, çünki biz prosesin əsas iştirakçılarıyıq.

**Tərəflər Konfransında (TK) iştirak (COP)**
Az sayda gənc TK-da iştirak etmək üçün səyahət edə bilir; bəziləri öz ölkələrinin rəsmi nümayəndə heyətlərinin üzvləri kimi, digərləri vətəndaş cəmiyyətinin nümayəndələri kimi iştirak edə bilir. Ölkənizdə ata biləcəyiniz müəyyən addımlar var ki, TK-da müzakirə edilən iqlim gündəliyinə təsir edə bilər.



Digər gənclərin TK-da iştirak və təşviqata dair bəzi əlavə tövsiyələrini təqdim edirik.

## Tərəflər Konfransına təsir

- Plan qur!
  • TK-na çatdırmaq istədiyin mesajları qərarlaşdır;
  • həmin iclas üçün məqsədini müəyyən et;
  • əlaqə qurmaq istədiyin qərarverici şəxsləri və ya influenserləri müəyyən et;
  • istifadə edəcəyin metodları müəyyənləşdir.

- Gənclər və yeniyetmələrin iştirakı üçün platformaların yaradılmasını təşviq edin. Ölkələr və akkreditə olunmuş təşkilatlar öz nümayəndə heyətlərinə gənclər və yeniyetmələri daxil edə bilərlər. Bunun niyə vacib olduğunu izah etmək üçün onlarla görüşməyi xahiş edə bilərsiniz.

- Ölkənizin TK-na hazırlaşarkən icra edəcəyi yol xəritəsi ilə tanış olmağa çalışın və məsləhətləşmələrdə iştirak edin. Siz səlahiyyətli şəxslərlə, təşkilatlar və ya gənclər və yeniyetmələrin təmsilçiləri ilə məsləhətləşmələr vasitəsilə öz fikirlərinizi bildirə bilərsiniz. Sizin fikirləriniz çox önəmlidir.

- Ölkənizin iqlim gündəliyini izləyin. Mərkəzi hökumətlər Tərəflər Konfransına öz gündəliyi ilə gəlir: siz gənclər və yeniyetmələr üçün prioritet olan məsələləri qaldırmaq baxımından onlara təsir etməyə çalışa bilərsiniz. Siz həmçinin, sizi təmsil edən yerli özünüidarəetmə orqanının iştirak edib-etməyəcəyini öyrənə və onların gündəliyi ilə tanış ola bilərsiniz.

- TK-da müzakirə edilməli olan əsas məsələləri sosial mediada vurğulayın. Sosial media kütləvi informasiya vasitələrinə və səlahiyyətli şəxslərə çıxışın effektiv yollarından biridir. Siz hətta rəyinizin daha geniş auditoriyaya çatmasına kömək edə biləcək heşteqlərdən istifadə edə bilərsiniz. Əvvəlki TK-dan qalan məsələləri araşdırın. Vəziyyətin daha dəqiq mənzərəsini çatdıra bilməyiniz üçün TK sessiyalarında müzakirə edilmiş bəzi məsələlərin təhlilini aparın.

- Siz rəsmi YOUNGO platformalarında iştirak edə bilərsiniz. Bu platformalar vasitəsilə, siz öz rəylərinizi verə bilərsiniz və bunlar TK-da YOUNGO-nun gündəliyinə daxil ediləcək.



## Tərəflər Konfransında iştirak

* Nümayəndə heyətinin tərkibində iştirak edin. İştirak etməyin bir üsulu ölkələrin nümayəndə heyətinin tərkibində iştirak etməkdir. Siz səlahiyyətli orqanlar və ya onların əməkdaşları vasitəsilə, yaxud UNİCEF-in ölkənizdəki nümayəndəliyi, digər BMT agentlikləri və ya vətəndaş cəmiyyəti təşkilatları kimi əlaqələr qurduğunuz digər təşkilatlar vasitəsilə iştirak üçün təşviqat apara bilərsiniz. Siz həmçinin müşahidəçi kimi qəbul edilmiş və gəncləri qəbul edən təşkilatların nümayəndə heyətlərində yer ayrılmasını təşviq edə bilərsiniz. Təşkilatla əlaqə üçün effektiv vasitələrdən biri sosial mediadır.

* Büdcə təyin edin. TK və əlaqədar tədbirlər xaricdə baş verə bilər və buna görə də, iştirakınız yüksək xərc tələb edə bilər. Əvvəlcədən büdcə təyin etməyiniz vacibdir. Bura bilet, nəqliyyat, qidalanma və yaşayış yeri xərcləri daxil olmalıdır. Gənclər üçün çox vaxt səyahət xərclərini qarşılamaq çox çətin olduğundan, resursları olan təşkilat və ya qurumlardan maliyyə dəstəyi istəmək faydalı ola bilər. Sizi dəvət edən tərəfdən sizin üçün və ya yetkinlik yaşına çatmamısınızsa, həm də sizi müşayiət edən şəxs üçün tədbir çərçivəsində maliyyə dəstəyi ayrılması imkanını soruşa bilərsiniz.

* TK-da əhatə ediləcək əsas məsələləri müəyyən edin. Hər bir TK fərqli mövzuda ola bilər, lakin hər zaman TK-da baş verən danışıqlarda və proseslərdə əksini tapan müxtəlif əsas məsələlər mövcuddur. Siz bu mövzular üzrə ekspert olmalı deyilsiniz, amma onların nə olduğunu bilməlisiniz.

* Necə iştirak edəcəyinizi dəqiqləşdirin. Rolunuzun nədən ibarət olacağına dair bütün zəruri sualları verin. İştirak etdiyiniz tədbir vasitəsilə nail olmaq istədiyiniz məqsədləri, eləcə də onun necə baş tutacağını və iştirakınızdan nə gözlənildiyini dəqiq bilmək də çox vacibdir.

* Şəxsi gündəlik müəyyən edin. TK-in müxtəlif sessiyaları eyni vaxtda baş verir, buna görə də hansı sahələri əhatə etməkdə daha maraqlı olduğunuzu müəyyən etmək faydalı ola bilər. Maraqlarınız əsasında şəxsi gündəlik yaratsanız, konfransdan maksimum yararlana biləcəksiniz. Müxtəlif sessiyalar arasından seçim edə bilərsiniz.

* Fikirlərinizi, qarşılaşdığınız çətinlikləri, təklif etdiyiniz həlləri və əsas sualları təqdim etmək üçün fürsətlərdən istifadə edin. Orda olan hər kəs məhz bu cür qarşılıqlı əlaqələr axtarışındadır.

* Yeni insanlarla əlaqə qurmağa çalışın. TK-da bütün ölkələrdən və müxtəlif sektorlardan olan təşkilatlardan nümayəndələr var. Beləliklə, siz milli və beynəlxalq səviyyədə qərar qəbul edən tərəflərlə səmərəli ittifaqlar yarada və hətta şəbəkə qura bilərsiniz. Müzakirə olunan məsələləri izləyə bilmək üçün onların əlaqə məlumatlarını mütləq istəyin.



- Müşahidə etdiyiniz proseslər barədə öyrənin. TK çərçivəsində müxtəlif iştirak imkanları ilə qarşılaşacaqsınız. Məsələn, qərarların verildiyi danışıqlar, ölkələrin mövqelərinin təqdim olunduğu dialoqlar bu qəbildəndir. Daha yaxşı təsirə nail olmaq üçün bunlar barədə daha çox öyrənə bilərsiniz.

- Özünüzlə qeyd dəftəri aparın və sizi ən çox maraqlandıran, ən çox tədqiq etmək və öyrənmək istədiyiniz mövzu, eləcə də tanış olduğunuz şəxsləri qeyd edin.

- Ehtiyacınız olduqda fasilə verin. Nə vaxt istəsəniz, TK-nı tərk edə bilərsiniz. Bu mühitlər çox gərgin olduğundan, bəzən qısa fasilə götürmək zəruridir.

**Yadda saxlayın:**
Öz bacarıqlarınıza inanın. Gənclər çox vaxt iştirak etmək üçün lazımi bacarıqlara malik olmadıqlarını düşünür. Lakin yadda saxlayın ki, sizin təcrübələriniz və ideyalarınız həqiqətən önəmlidir və sizə lazım olan sadəcə iştirak etmək imkanıdır.

**"İqlim idarəçiliyi nədir?" kitabçasında siz artıq Tərəflər Konfransında iştirak etmiş gənclərin təcrübələri barədə oxuya bilərsiniz.**



# 3 İqlim dəyişmələri ilə mübarizə üzrə tədbirlərin təşkili



## Qısa təsvir:

Siz iqlim missiyanızla bağlı məqsədlərinizə doğru irəliləməyinizə kömək edəcək tədbirlər təşkil edə bilərsiniz. Tədbirlərdə gənclər və yeniyetmələr bir araya gələrək birgə təkliflər hazırlaya, fəaliyyətləri sürətləndirə və ya təcrübə mübadiləsi apara bilərlər. Siz həmçinin icmanızdakı və ya ölkənizdəki liderləri də dəvət edə bilərsiniz. Bu tədbirlər seminar, söhbət, Gənclərin Yerli Konfransları və ya panel konfransları və digər formalarda ola bilər. Tədbirin virtual formada keçirilməsi digər ölkələrdəki şəxslərin asanlıqla iştirak etməsinə şərait yaradaraq, sizə yeni əlaqələr qurmaq, şəbəkənizi genişləndirmək, o cümlədən əlaqə qurulması çətin olan şəxslər də daxil olmaqla öz təcrübələrinizi və baxışlarınızı zənginləşdirmək imkanı verir.

İqlim dəyişikliyi məsələləri ilə bağlı bir tədbirin təşkilindən əvvəl və sonra, eləcə də tədbir zamanı görülməli işlərlə bağlı gənc fəalların bəzi tövsiyələrini təqdim edirik.

Komandanı formalaşdırarkən, üzvlərin bir-birini tamamlamaq üçün ehtiyac duyduqları bacarıqları nəzərdə saxlayın: komanda işi üzrə bacarıqlar, fəal dinləmə, məsuliyyət, problem həll etmə, dizayn bacarıqları, natiqlik bacarıqları, tədbirin mövzusu üzrə texniki biliklər və s.

### Əvvəl

* Təşkilatçı komanda qurun. Siz tədbirin təşkili üçün komanda formalaşdırmaq üçün digər gənclər və yeniyetmələri cəlb edə və onların hər birinə vəzifələr təyin edə bilərsiniz. Müxtəlif əhali qruplarından olan şəxsləri dəvət edə bilərsiniz: komandanın tərkibində müxtəliflik nə qədər çox olarsa, o qədər yaxşıdır. Gender bərabərliyini təmin etmək və eyni zamanda ənənəvi olaraq kənarda qoyulan qruplara mənsub olan şəxsləri cəlb etmək vacibdir. Siz onların ehtiyaclarını və baxışlarını nəzərə almalısınız.

* Tədbirin məqsədini, hədəf auditoriyasını və əldə etmək istədiyiniz nəticələri müəyyən edin. Bu əsasda, fəaliyyətlər və onlara cavabdeh olan şəxsləri öncədən planlaşdırıla bilər. Tədbirin metodologiyasının müəyyən edilməsinə xüsusi diqqət yetirilməlidir - xüsusilə bu, qrupların cəlb olunduğu virtual tədbirdirsə.



* **Büdcəni müəyyənləşdirin.** Tədbirə ev sahibliyi etmək üçün tədbir məkanı, nəqliyyat, yaşayış yeri, qidalanma, rabitə xərcləri və digər dillərə və ya işarət dilinə sinxron tərcümə və digər bəzi xərcləri qarşılamaq üçün maliyyə tələb oluna bilər. Konkret büdcənizin olması sizə maliyyə vəsaiti olan təşkilat və ya qurumlara maliyyə və ya digər yardım məqsədilə müraciət etməyə kömək edəcək. Tədbiriniz üçün nə cür dəstək istədiyinizə və necə tərəfdaşlar axtardığınıza qərar verin. Onların da sizinlə eyni amalı bölüşdüklərindən əmin olun. Belə olduqda, siz "yaşıl kamuflyaj"la məşğul olan təşkilatlardan resurs almaqdan qoruna bilərsiniz.

* **Təşkilatları, liderləri və ya nüfuzlu şəxsləri tədbirinizin tərəfdaşları olmağa dəvət edin.** Siz onlarla sosial media, məktub və ya e-məktub vasitəsilə əlaqə yarada bilərsiniz. Tərəfdaş sizə tədbiri yaymaqda kömək edə, öz bilik və təcrübələri ilə töhfə verə, əlaqələr qurmağa, şəbəkələşməyə kömək edə və hətta logistik dəstək verə bilər. UNİCEF və digər BMT agentlikləri kimi təşkilatlarla, eləcə də QHT-lərlə əlaqə qurun.

* **İnnovativ ideyaları komandanızla bölüşün.** Digər tədbirləri təkrarlamağa çalışmayın: öz tədbirinizin özünəməxsus olmasına və həqiqətən konkret bir problemə yönəlməsinə çalışın. Fikir mübadilələri aparmaq üçün komandanızla sessiyalar təşkil edin!

* **Tədbirinizin inklüziv olması və iştirakçılığı ehtiva etməsi üçün mexanizmlər yaradın.** Tədbir virtualdırsa, görüş xaricində də məsləhətləşmələr apara və ya gənclərə onların fikirlərini öyrənmək üçün mesajlar göndərə bilərsiniz. Tədbir fiziki formada keçirilirsə, səyahət etmək üçün resursları olmayan şəxsləri cəlb etmək üçün maliyyə dəstəyi almağa cəhd edə bilərsiniz. Siz həmçinin, şifahi tərcümə və işarət dili xidmətləri təmin edə, yaxud dolayı şəkildə daha çox insanların baxışlarını öyrənmək üçün mexanizmlər yarada bilərsiniz. Bəzən maliyyələşmə əldə etmək asan deyil. Buna görə də, ümidsizliyə düşməmək və tədbiri sərəncamınızda olan vəsaitlər çərçivəsində mümkün qədər inklüziv etməyə çalışmaq lazımdır.

* **Tədbiri bacardığınız qədər ictimailəşdirin.** Siz sosial mediadan, icmanızda tanınan platformalardan (məsələn, məktəblər, yaxud icma görüş zalları) istifadə edə, yaxud liderlərdən, influenserlərdən və ya tanıdığınız adamlardan dəvətləri yaymağı xahiş edə bilərsiniz.



## Müddətində

- **İnsanların etimad göstərməsinə və iştirak imkanının olmasına şərait yaradan interaktiv dinamika tətbiq edə bilərsiniz.** Bunun üçün müxtəlif alətlərdən istifadə edə bilərsiniz: hər bir şəxsin özünü təqdim etməsinə, iqlim tədbirlərində iştirak etməsinin və ya bu istiqamətdə işləməsinin səbəbini izah etməsinə imkan yaratmaq, yaxud canlı sorğu və ya sorğu-sual oyunundan istifadə etmək. İnternet üzərindən sizin tədbiri daha dinamik etməyinizə və insanları bir-birini daha yaxşı tanımağa həvəsləndirməyinizə kömək edə biləcək ödənişsiz və ödənişli resurslar mövcuddur. İştirakı stimullaşdırmaq üçün fəaliyyətlərin daha maraqlı və cəlbedici olmasına çalışın. Fəaliyyəti qabaqcadan sınaqdan keçirmək tövsiyə olunur.

- **Tədbirin iştirakçılıq şəraitində keçməsinə çalışın.** Siz ümumi platformaya malik ola, eyni zamanda müxtəlif mövzuları əhatə etməyə imkan verən daha kiçik və ya tematik dialoq qrupları təşkil edə bilərsiniz. Tədbir rəqəmsal formada keçirilirsə, daha kiçik virtual otaqlar da yarada bilərsiniz. Lakin hər otaqda kifayət qədər iştirakçının olduğundan və müxtəlifliyin təmin edildiyindən əmin olun. Çünki bu, söhbətin məhsuldar və konstruktiv olmasına imkan verir. Söhbət axıcı şəkildə irəliləmədikdə, digərlərini həvəsləndirmək üçün öz fikirlərinizi bölüşə bilərsiniz. Tədbir virtual olduğu təqdirdə, söhbətdən əlavə, fikirlərin bölüşüldüyü ağ lövhələrdən yararlana bilərsiniz. Heç kəsi danışmağa məcbur etməyin: iştirakın sərbəst və könüllü xarakter daşıması vacibdir.

- **Canlı yayımlar.** Siz sosial şəbəkələr vasitəsilə tədbirin canlı yayımını təşkil edə, yaxud tədbirin gedişində ən mühüm məqamları canlı şəkildə vurğulaya bilərsiniz. Siz həmçinin heşteq yarada və iştirakçılardan öz paylaşımlarında bu heşteqlərdən istifadə etməyi xahiş edərək tədbir barədə məlumatlılığı artıra bilərsiniz.

- **İştirakçıların dedikləri ilə bağlı qeydlər aparın.** Təşkilatçı komandada tədbir zamanı meydana çıxan müxtəlif fikirləri və təklifləri qeydə alan şəxsin olması mühümdür. Bunun üçün vərəqlərdən və ya virtual tətbiqdən istifadə edilə bilər (məsələn, jamboard.) Tədbirin video qeydiyyatının aparılması hər zaman faydalıdır.



## Sonra

* **Tədbir zamanı toplanmış qeydləri və məlumatları səliqəli şəkildə nizamlayın.** Bununla siz yaradılmış kontenti müəyyən struktura sala biləcəksiniz. Bunun üçün siz "Excel" sənədindən və ya oxşar proqramdan istifadə edə, yaxud qeyd dəftəri üzərində bunu edə bilərsiniz.

* **Tədbirin yekun hesabatını tamamlamaq üçün təşkilatçı komanda ilə işçi sessiyalar təşkil edin.** Əhatə edilmiş əsas məqamların qeyd olunduğu qısa bir sənəd tərtib etmək önəmlidir. Bəzi hallarda bəyannamə və ya memorandum da yaradıla bilər. Bu sessiyalardan istifadə edərək siz həm də sənədin yazı üslubunu təkmilləşdirə və strukturunu müəyyən edə bilərsiniz. Siz, həmçinin gələcək tədbirlər üçün öyrənilmiş dərsləri nəzərə almaq və təkmilləşdirmələr etmək üçün komanda ilə qiymətləndirmə sessiyası keçirə bilərsiniz.

* **Fəaliyyət planı hazırlayın.** Tədbirin nəticələri əsasında icra etməyə hazırlaşdığınız ən mühüm tədbirləri daxil edə bilərsiniz. Tədbirə özlüyündə müstəqil tədbir kimi yanaşılmamalıdır: o, iqlim missiyası üçün səyləri birləşdirməyə və onun icrasını sürətləndirməyə xidmət etməlidir. Siz təşkilatçı komanda ilə fəaliyyət planı hazırlaya və yeni təşkilatları daxil edə bilərsiniz.

* **"Xəbər yaratmaq" üçün hazırladığınız hesabatdan istifadə edin:** nəticələrdən bəzilərini sosial mediada paylaşa və ya icma, yerli və ya milli media üçün press-relizlər hazırlaya bilərsiniz.

* **İştirak edənlərə təşəkkür edin.** İştirak barədə sertifikat təmin etmək faydalıdır. Çünki bu, iştirakçıları sizin missiyanızı dəstəkləməyə həvəsləndirəcək. Bu sertifikat təşkilatçı və sizin tədbiri dəstəkləmiş təşkilatçılar tərəfindən imzalana bilər. Siz ən vacib məqamları əks etdirən icmal sənədini, eləcə video qeydiyyatı, təqdimatları və panel iştirakçılarının və təşkilatın əlaqə məlumatlarını bölüşə bilərsiniz. Siz həm də rəy toplamaq üçün onlayn anket göndərə bilərsiniz. Tədbirdə könüllü kimi iştirak etmiş şəxslərin fəaliyyətini qiymətləndirmək də çox vacibdir.





**Gənclərin Yerli Konfransı necə təşkil olunur?**

Mənim adım Montse Fonseka Qarsiyadır. Mən Meksikada yaşayan gənc fəalam və “Qlobal Ekoloji Maarifləndirmə” proqramının əməliyyatlar üzrə direktoruyam. Mən Meksikada keçirilən Gənclərin Yerli Konfransının (GYK) təşkilatçı komandasının üzvü idim. Gənclər bu tədbirə iqlim böhranı barədə öyrənmək və addımlar atmaq üçün dəvət edilmişdi.

Bunlar bizim GYK təşkil etmək üçün atdığımız ilk addımlar idi:

- Biz tərkibində müxtəlifliyin təmin olunduğu bir komanda qurduq. Komanda üzvləri tədbirin təşkili üçün müəyyənləşdirdiyimiz ehtiyaclara uyğun olaraq bir-birini tamamlaya bilirdi.
- Biz müxtəlif tematik qruplar yaratdıq: əlaqələr, marketinq və dizayn, logistika, əsas əlaqələndirmə və inklüzivlik. Bu, prosesin hər bir mərhələsində, eləcə də nəticələrdə inklüzivliyin nəzərə alınmasına imkan verirdi.
- Biz tədbirin əsas mövzusunu 5 istiqamət üzrə müəyyən etdik: ərzaq, sağlamlıq, enerji, nəqliyyat və təhsil.
- Biz GYK-da iştirak edən gənclərin tədbirin əsas mövzuları üzrə biliklərini yaxşılaşdırması üçün öncədən təlim və hazırlıq xəritəsi tərtib etdik.

Üzləşdiyimiz əsas maneə pandemiya oldu: hər şeyi aylarla dayandırmalı və ideyalarımızı yeni vəziyyətə uyğunlaşdırmalı olduq. Yeni şəraitdə planlaşdırma vaxtı çox qısa idi, proses mürəkkəb, gərginliklər isə artmışdı. Lakin müxtəlifliyin təmin edildiyi mükəmməl və əzmli bir komanda sayəsində layihə davam etdi. Komanda da mənim qədər bu amala inanırdı. Biz anladıq ki, bu tədbir zəruri idi və göstərilən səylərə dəyərdi.

Sizə demək istərdim ki, mənim üçün, gənclər üçün keçirilən bu iqlim dəyişmələri üzrə tədbir həyatımı dəyişdi. Bu həlledici məqam məni fəaliyyətimi davam etdirməyə və ətraf mühit və iqlim sahəsində daha peşəkar şəkildə təhsil almağa həvəsləndirdi. Beləliklə, bir tədbirin təşkili təsəvvür edə biləcəyinizdən daha böyük təsirlərə malik ola bilər.

**Yadda saxlayın:**
Tədbir təşkili çətin olmasına baxamayaraq, o, digər insanları öz missiyanıza fəal şəkildə cəlb etmək imkanı verən mükəmməl təcrübədir.



# 4 İqlim dəyişikliyi ilə bağlı panel müzakirələrində iştirak

## Qısa təsvir

Gənclərin iqlim dəyişmələri ilə bağlı panel müzakirələrində artan iştirakı çox müsbət haldır. Bu panel müzakirələri müxtəlif bölgələrdən olan insanların qarşılıqlı əlaqədə ola bildiyi, geniş əhatə dairəsinə malik mühitlərdir. Onlar söhbətləri zənginləşdirir, yeni baxış bucaqlarına və hətta yeni təşəbbüslərə şərait yaradır. Panel müzakirələri geniş spektrli auditoriyaları əhatə edə bilər. Virtual format isə dünyanın hər yerindən olan gənclərin vebinarlar vasitəsilə panel müzakirələrində iştirakı üçün əlavə imkanlar yaradıb.

İqlim dəyişikliyi məsələləri ilə bağlı panel təşkilindən əvvəl və sonra, eləcə də tədbir zamanı görülməli işlərlə bağlı gənc fəalların bəzi tövsiyələrini təqdim edirik.

## Paneldən əvvəl

* **Siz panel iştirakçısı kimi dəvət edilmisinizsə, panellə bağlı istənilən sualları verin.** Müzakirə ediləcək konkret mövzunu dəqiq başa düşməyiniz önəmlidir. Bura həmçinin, logistik aspektlər, məsələn, tədbirin vaxtı, tarixi və müddəti, yaxud auditoriyanın və panelin qalan üzvlərinin kimlər olacağı daxildir. Siz panel iştirakçısı olmaqla bağlı dəvəti qəbul edə və ya etməyə bilərsiniz: iştirak etmək öhdəliyiniz yoxdur.

* **Müəyyən bir tədbirdə panel iştirakçısı olmaq üçün müraciət edin.** Panel iştirakçısı kimi iştirak etməyin ən çox istifadə edilən üsulu panelin təşkilatçılarından dəvət almaqdır. Lakin iqlim dəyişikliyi məsələləri ilə bağlı bir çox panellərdə panel iştirakçısı kimi çıxış etmək üçün müraciəti özünüz edə bilərsiniz. Siz sosial şəbəkələrdə və ya internetdə belə bir çağırışla qarşılaşsanız, bu fürsətdən yararlanın.

* **Digər panellərdə artıq iştirak etmisinizsə, öz yerinizi iştirak etmək istəyən birinə verə bilərsiniz.** Digər fikirləri dinləmək hər zaman önəmlidir. Buna görə də, başqa birinə iştirak etmək imkanı verin (biz hamımız bu tədbirlərdə iştirak edə bilmək üçün birbirimizə dəstək olmalıyıq!)

* **Panel tərkibinin müxtəlifliyini qiymətləndirin və ehtiyac olduqda, etirazlarınızı bildirin.** Siz paneldə müxtəlif əhali qruplarının təmsil olunub-olunmadığını, məsələn, gender, etnik mənsubiyyət və gənclər üzrə balansın qorunub-qorunmadığını müəyyən edə bilərsiniz. Müxtəlifliyin artırılmasının mümkün olduğunu düşünürsünüzsə, bunu panel təşkilatçılarına təklif edə bilərsiniz. İqlim tədbirlərində müxtəliflik önəmlidir! Panelə dəvət edilməmiş əhali qrupu barəsində danışmaqdan çəkinin. (məsələn, iqlim dəyişikliyi ilə mübarizədə yerli xalqların rolu ilə bağlı vebinarda yerli xalqlar iştirak etmirsə).

* **Təqdimatınızla nə qədər lazımdırsa, məşq edin.** Siz ailənizin, dostlarınızın və hətta güzgünün qarşısında məşq edə bilərsiniz. Necə təqdimat etdiyinizi görmək üçün video qeydiyyatınızı da apara bilərsiniz. Əsas məsələ, hazır olana qədər təqdimatınızla məşq etməkdir. Siz hətta paneldə əhatə edilməli mövzu üzərində açıq tipli suallarla məşq edə bilərsiniz.

* **Digər panel iştirakçılarını araşdırın və panel moderatorlarının kimlər olduğunu müəyyən edin:** Bu yolla siz daha özünəinamlı hiss edə bilərsiniz. Tədbirin harada keçiriləcəyini də müəyyən edə bilərsiniz. Virtual formatdadırsa, istifadə ediləcək proqramla tanış olun: cihazınıza quraşdırın, qabaqcadan qoşulun, kameranızın, audio sistem və mikrofonunuzun işlədiyindən, ekranınızı bölüşə bildiyinizdən (təqdimat etməyi planlaşdırırsınızsa) əmin olun. Adətən, tədbir təşkilatçıları hər şeyin qaydasında olduğundan əmin olmaq üçün qabaqcadan daxil olmağınızı xahiş edir. Qoşulmaq üçün özünüzü rahat hiss etdiyiniz, çox səs-küyün olmadığı, stabil internet bağlantısının olduğu sakit bir yer tapın.

* **Bu sənədin əvvəlində,** xüsusilə "Əsas mesajlarını müəyyən et" bölməsində təqdim olunan **ümumi tövsiyələri oxumağınızı tövsiyə edirik.**

## Panel ərzində

- Çıxışınızı güclü mesajlarla yekunlaşdırın. Bu o deməkdir ki, çıxışınız sizi dinləyənlərin yadında qalacaq. Siz missiyanızla bağlı emosiya və duyğuları əldə etdiyiniz məlumatlarla balanslaşdıra bilərsiniz.

- Digər panel iştirakçılarının çıxışları ilə bağlı qeydlər götürün. Bununla siz digər iştirakçıların vurğuladığı ən mühüm məqamları müəyyən edə və təqdimatınızda onlara istinad edə biləcəksiniz. Panel iştirakçılarının çıxışlarının bir-biri ilə əlaqəli olması böyük töhfə verir, çünki bu zaman birbirindən ayrı çıxışlar əvəzində, birgə əməkdaşlıq meydana çıxır.

- Suallara cavab verərkən tələsməyin. Sizə sual verilibsə, fikirlərinizi daha yaxşı strukturlaşdırmaq və daha aydın cavab verə bilmək üçün cavab barədə düşünün. Zərurət olarsa, cavabınızı hazırladığınız müddətdə iştirakçılardan digər suallara keçməyi xahiş edə bilərsiniz.

- Yalnız cavabına daha əmin olduğunuz sualları cavablandırın. Əgər bir suala cavabınızın olmadığını düşünürsünüzsə, həmin vaxt bu suala cavab verə bilmədiyinizi deyə bilərsiniz. Fürsətdən istifadə edərək, artıq vurğulamadığınız bir mesajı vurğulaya bilərsiniz. Məsələn: “Hazırda bu suala dəqiq cavabım yoxdur. Lakin qeyd etmək istərdim ki,....”

## Paneldən sonra

- **Digər panel iştirakçıları ilə əlaqə qura bilərsiniz.** Panellərdə çox zaman iqlim tədbirlərində nüfuza malik olan və ya icmanızda və ya ölkənizdə iqlim sahəsində səlahiyyətli orqanları təmsil edən şəxslər iştirak edir. Bu fürsətdən istifadə edərək, həmin şəxslərlə əlaqə yarada və birgə tədbirlər keçirə bilərsiniz. Panel virtual formada keçirilirsə, təqdimatınız zamanı panel iştirakçıları ilə əlaqədə qalmaq istəyinizi ifadə edin. Siz hətta əlaqə məlumatlarınızı auditoriya ilə bölüşə bilərsiniz.





**Təşviqat metodu kimi yerli panellərdə iştirakımız**

Mənim adım Fransisko Xavyer Reyna Lüserodur. Mən Boliviyada yaşayan bir fəalam. Latın Amerikası və Karib Hövzəsi Ölkələrinin Yerli Gənclər Şəbəkəsinin üzvü və "Semilla deAgua" təşkilatının həmtəsisçisiyəm. Yerli icmalarda özünü iqlim dəyişmələri ilə mübarizəyə həsr edən gənclər qrupları ilə işləmək imkanım oldu. Təcrübəm səbəbilə məni "Koronavirus pandemiyasından əvvəl innovasiyalar və ənənəvi biliklər. Yerli gənclərdən təkliflər" mövzusunda paneldə spiker kimi iştirak etməyə dəvət etdilər. Panelin məqsədi koronavirus pandemiyası fonunda Latın Amerikasından olan yerli gənclər arasında təcrübə və sinergiya mübadiləsi yaratmaq idi.

Panelə hazırlaşarkən aşağıdakı addımları atdım:

• Məlumatlar və dəlillər tapmaq üçün son 10 il ərzində öz icmamda aparılmış tədqiqatlara nəzər saldım.
• İcmamdakı fəalların motivasiyalarını öyrənmək, qarşılaşdıqları çətinlikləri anlamaq və layihələrin inkişafı barədə öyrənmək üçün onlarla söhbət apardım.

Paneldə iştirak etmək yaxşı təcrübə oldu, çünki sizinlə indi paylaşacağım məlumatları öyrənə bildim:

• İcmalarında oxşar layihələr həyata keçirmiş insanları dinləməliyik: bu, mənə istifadə etdiyim metodologiyaları yenidən nəzərdən keçirməyə kömək etdi.
• Yerli gənclər olaraq fəaliyyətimizə imkan verən şəhər, əyalət, federal və beynəlxalq qanunları bilmək vacibdir.
• Siz layihələr, tarixlər, nümunəvi təcrübələr, iştirakımızı təsdiqləyən etibarlı sənədlər, əsas elementlərin foto və videoları üçün qeydiyyat jurnalı yaratmalısınız. Bu, panel müzakirələrində iştirak edərkən, bizim üçün istinad sənədi kimi çıxış edəcəkdir.





**Siyasət, icma və gələcək: mənim milli səviyyədə təcrübəm**

Salam! Mənim adım Beatris Reyesdir. Mən "Jóvenes y Cambio Climático de Panamá" təşkilatının sədriyəm. Fransisko kimi, mən də panel müzakirəsində iştirakla bağlı təcrübəmi bölüşmək istərdim. Mənim iştirak etdiyim "Siyasət, İcma və Gələcək" adlı milli panel müzakirəsi "İqlim Böhranı və Su Forumu: Hər kəs üçün çağırış" mövzusundakı tədbirin tərkibinə daxil idi.

İştirakımdan öyrəndim ki, gənclər bütün məsələlərdə ictimaiyyətin diqqətini cəlb edə bilirlər və biz öz fikirlərimizi sərbəst ifadə edə bilirik, çünki biz fərdi maraqları güdmürük, əksinə, məsələn, iqlimi sabitləşdirmək və ya insan hüquqları üzrə bərabərliyə nail olmaq üçün təxirəsalınmaz tədbirlərin zəruri olduğuna güclü inamımız var.

Madam ki, siz panellərdə iştirak etməyə hazırlaşırsınız, bəzi tövsiyələri sizinlə bölüşmək istərdim:

- Auditoriyanızı tanıyın: hamı eyni biliklərə malik deyil. Bu, çıxışlarınızı daha yaxşı uyğunlaşdırmağa kömək edəcək.
- Bədən dilini yaxşı bilmək faydalıdır; bunun da çox vacib olduğunu tez-tez unuduruq, ona görə də duruş, əl-qol hərəkətləri və üz ifadələri kimi aspektlərə diqqət yetirməliyik.
- Hər zaman gözlənilməz problemlər yarana bilər. Deyəcəyin sözü unutmaq ən çox rast gəlinən problem olsa da, reallıqda insanlar çox zaman bunu başa düşmür. Əgər bu, sizin başınıza gələrsə, bir neçə saniyə nəfəs alın və fikirlərinizi yenidən toplayın.
- Hər zaman gənclərin baxış bucağından danışmağa çalışın. Siz öz çıxışlarınızda gənclərin iqlim dəyişmələrindəki mühüm rolunu vurğulamalısınız. Əgər bir panel müzakirəsində yenidən iştirak etsəm, bunun daha güclü şəkildə vurğulayaram.
- İmkan daxilində öz doğma dilinizdə danışın (mənim ana dilim ispan dilidir) . Məncə bu vacibdir, çünki biz Latın Amerikası və Karib regionunun mövqelərini daha çox diqqətə çatdırmalıyıq və bura bizimlə ingilis dilində danışanlar da daxildir. Əgər ana diliniz ingilis dilidirsə, digərlərinin öz ana dillərində danışmasını asanlaşdırmağa çalışın.



**Yadda saxlayın:**
Panel müzakirəsində iştirakla bağlı həyəcan keçirmək təbiidir. Əsas məsələ, fürsətlərdən yararlanmaq və iqlim tədbirləri ilə bağlı mesajlarınızı çatdırmaqdır. Praktiki təcrübə qazandıqca, panellərdə iştirak getdikcə daha da asanlaşacaq.

# 5 İqlim məsələləri ilə bağlı müsahibələrdə iştirak

## Qısa təsvir

İqlim dəyişmələri ilə mübarizə fəaliyyətinə dair mesajlarınızı çatdırmaq üçün mühüm vasitələrdən biri müsahibədir. Müsahibə, məlumatlılığı artırmaq və iqlim tədbirlərinə çağırış etmək üçün məsələ barədə bildiklərinizi ötürməlidir. Çalışın ki, sadəcə mövzu üzrə ixtisaslaşmış şəxslərin deyil, hər kəsin asanlıqla başa düşəcəyi mesaj çatdırasınız.

Müsahibədən əvvəl və sonra, eləcə də müsahibə zamanı atılmalı addımlarla bağlı gənc fəalların bəzi tövsiyələrini təqdim edirik.

## Əvvəl

* **İştirakın formasını, eləcə də müsahibədə müzakirə ediləcək məsələləri dəqiqləşdirmək üçün mümkün qədər çox sual verin.** Maraqlarınıza uyğun olaraq, müsahibədə iştirak etməyi qəbul edə və ya etməyə bilərsiniz. Sualların qabaqcadan təqdim olunmasını da xahiş edə bilərsiniz.

* **Həmin media subyekti və sizinlə kimin müsahibə aparacağı barədə mümkün qədər çox məlumat toplayın:** hədəf auditoriya kimdir? Həmin media subyektini kim oxuyur, izləyir və ya qulaq asır? Jurnalist keçmişdə hansı növ müsahibələr keçirib?

* **Təsir etmək istədiyiniz auditoriyanı müəyyən edin.** Bu yolla siz öz mesajınızı müəyyən bir auditoriyaya daha yaxşı uyğunlaşdıra bilərsiniz. Sizin missiyanızın diqqət mərkəzində dayanan məsələlərin kimlərə təsir etdiyini, birbaşa və dolayı iştirakçıların kimlər olduğunu və maraqlı tərəflərin olub-olmadığını müəyyənləşdirin. Bu şəxsləri və qrupları strukturlaşdırmaq tövsiyə olunur.

* **Özünüzün və ya digər gənclər və yeniyetmələrin təcrübələrindən istifadə edin.** Mesajınızın sizin təcrübələrinizi əks etdirməsi mühümdür. Çünki bu zaman siz insanların emosiyalarına təsir edə və onları sizin iqlim missiyanıza qoşulmağa həvəsləndirə bilərsiniz. Siz həmçinin müsahibədən, öz səslərini eşitdirməkdə çətinlik çəkən çox sayda digər gənclər və yeniyetmələrin reallıqlarını vurğulamaq üçün istifadə edə bilərsiniz.

* **Siz hər zaman öz məlumatlarınızın mənbələrini dəqiq bilməlisiniz.** Təqdim edəcəyiniz məlumatların mənbəyini yadda saxlayın. Müsahibə zamanı hətta bu mənbələri qeyd edə də bilərsiniz.

* **Sizinlə müsahibə aparacaq şəxslə qabaqcadan danışın.** Bu, daha özünəinamlı hiss etməyinizə kömək edəcək. Bunu edə bilməsəniz, müsahibə aparan şəxsin daha əvvəlki müsahibələrini izləyə bilərsiniz. Bu, sizə onun üslubunu və verdiyi sualların növünü başa düşməkdə kömək edəcək.

* **Müsahibəni başqa biri ilə praktiki şəkildə məşq edin.** Sizə verilə biləcək sualları təsəvvür edin və hazır olduğunuzu hiss edənədək məşq edin. Ailəniz, dostlarınız və ya güzgü qarşısında məşq edin və hətta öz video qeydiyyatınızı apara bilərsiniz.

* **Dil amilinin əngəl olmasına imkan verməyin. Müsahibələr tez-tez başqa bir dildə aparılır.** Buna görə də, tərcümənin təmin edilib-edilməyəcəyini soruşa bilərsiniz. Tərcümə təmin edilmirsə, ailə üzvünüz və ya həmkarınızdan hazırlaşmağınıza kömək etməsini istəyə və ya müsahibəçidən sualları qabaqcadan təqdim etməsini xahiş edə bilərsiniz. Mümkün olduğu halda, suallara yazılı formada cavab verməyi təklif edə bilərsiniz.



## Müddətində

- **O qədər məşq edin ki, əsas mesajlarınızı oxumağınıza ehtiyac olmasın.** Siz özünüzlə qeydlərinizin olduğu kağız parçası saxlaya bilərsiniz, lakin təbii görünməyiniz üçün onları diqqətlə oxumaqdan çəkinin. Əsas məsələ çatdırmaq istədiyiniz mesajlarla dəfələrlə məşq etməkdir.

- **Konkret detalları qeyd edəcəksinizsə, istifadə etdiyiniz mənbədən dəqiq agah olun.** Bu halda, istifadə etdiyiniz məlumatlar etibarlı olacaq və istənilən şəxs onları yoxlayıb təsdiqləyə bilər. Məlumatı axtardığınız linkləri və ya veb-səhifələri yadda saxlayın ki, sizdən xahiş ediləndə onları bölüşə biləsiniz.

- **Çox mürəkkəb dildən istifadə etməməyə çalışın.** Əgər çox mürəkkəb və  texniki ifadələrdən istifadə etsəniz, çıxışınızın hədəf auditoriyası yalnız mövzu üzrə ixtisaslaşmış şəxslərlə məhdudlaşa bilər.

- **Müsahibədə iştirakınızı çox güclü bir mesajla yekunlaşdıra bilərsiniz.** Bu, konkret bir fakt və ya iqlim missiyanıza qoşulmağa çağırış ola bilər. Nə qədər çox insan bunu eşitsə, o qədər yaxşıdır!

- **Müsahibə yazılı formadadırsa, onu qeydə ala bilərsiniz ki,** yanlış təqdim olunan informasiya və ya bildirmədiyiniz bəyanatlar sizə aid ediləndə hazır olasınız.

## Sonra

- **Müsahibə canlı formada aparılmırsa, onun mətnini nəzərdən keçirib təsdiq etməyi xahiş edə bilərsiniz.** Müsahibəyə daxil edilməsini istəmədiyiniz bir şey varsa, bunu müsahibəçilərə bildirə bilərsiniz.

- **Müsahibənin video qeydiyyatına və ya mətninə nəzər yetirin, qeydlər götürün və güclü və zəif tərəflərinizin nələr olduğunu təhlil edin.** Bu, növbəti müsahibədə daha yaxşı iştirak etməyinizə kömək edəcək.

- **Müsahibənizin kimlərə çatacağını öyrənin.** Müsahibənizin kimlərə çatdığını və hər hansı media orqanlarının onu təkrar dərc edib-etmədiyini öyrənə bilərsiniz.





**Müsahibələr vasitəsilə fəallığım.**

Salam, mənim adım Nina Pi Brozoviçdir. Boliviyada yaşayıram və gənc fəalam. Sizə müsahibələrdə iştirak təcrübəm barədə danışmaq istəyirəm. 2019-cu ildə ekoloji fəallığa başlayandan bəri, bir sıra müsahibələrdə iştirak etmişəm. Onların sayını dəqiq demək çətindir, lakin 30-a yaxın olduğunu düşünürəm. Mən bu müsahibələrdə "Fridays For Future" təşkilatının Boliviya nümayəndəliyi adından iştirak etmişəm.
Mən hazırlaşmaq üçün adətən bir qeyd dəftəri götürüb, müsahibə mövzusu ilə əlaqəli ideyaları, müvafiq təcrübələri, eləcə də deyəcəklərimi təsvir edən faktları və rəqəmləri qeyd edirəm. Fikirləri məntiqi ardıcıllıqla yazmaq vacibdir. Çünki bu onların aydın olmasına və sualları cavablandırarkən onları yadda saxlamağa və çatdırmağa imkan verir. Mən adətən müsahibə barədə ailəm və dostlarımla qabaqcadan danışaraq, meydana çıxa biləcək məsələlər və ya suallardan öncədən agah oluram.

Zaman keçdikcə, mən öyrəndim ki, yaxşı müsahibə verməyin açarı ona hazırlaşmaq və mövzunu yaxşı mənimsəməkdir. Bir müddət təqdid etdiyiniz və düşündüyünüz mövzuda rəy verməyə və ya sualı cavablandırmağa çalışın. Bu halda siz intuisiyasına arxalanmaqdan və ya sizi dinləyən şəxslərə yanlış məlumatlar verməkdən yayına bilərsiniz.



**Yadda saxlayın:**
Hər şeyi ilk dəfə etmək bir qədər qorxulu gəlir. Lakin iqlim dəyişmələri ilə mübarizəyə dair əsas mesajlarınızı yaymaq üçün fürsətlərdən yararlanmaq vacibdir. Təcrübə qazandıqca siz daha yaxşı nəticə göstərəcəksiniz və digər gənclər və yeniyetmələrin müsahibələrə hazırlaşmasına kömək edə biləcəksiniz.

# 6 Yerli, milli və beynəlxalq qurumlarla görüşlərdə iştirak

## Qısa təsvir:

İqlim fəaliyyəti çərçivəsində icmanızda, ölkənizdə və ya hətta beynəlxalq səviyyədə qərarverici şəxslərlə işçi görüşlərdə iştirak imkanları meydana çıxa bilər. İqlim fəalları olaraq, əsas məqsədlərdən biri bu orqanlarda təmas qura bilməkdir. Bu halda siz uşaqların, yeniyetmələrin və gənclərin ehtiyaclarını və çətinliklərini nəzərə alaraq, iqlim gündəliyinin icrası istiqamətində təşəbbüslərin və həll yollarının yaradılmasında iştirak edə bilərsiniz. Siz öz baxışlarınızı və təkliflərinizi bu görüşlərdə səsləndirə,təcrübələrinizi bölüşə və verilmiş qərarlara təsir edə bilərsiniz. Bu platformalar bəzi region ölkələrində getdikcə daha çox istifadə edilir. Lakin gənclər və yeniyetmələrin qərarverici mühitlərdə iştirakının institusional çərçivəyə salınmasını təşviq etməyə davam etmək lazımdır.

Qərarverici şəxslərlə görüşdən əvvəl və sonra, eləcə də görüş zamanı atılmalı addımlarla bağlı digər gənc fəalların bəzi tövsiyələrini təqdim edirik.

### Əvvəl

* Görüşdən gözlədiyiniz nəticələri dəqiqləşdirin. Digər gənclər və yeniyetmələrlə birlikdə ümumi məqsəd təyin edə bilərsiniz. Məsələn, ölkənizin normativ-hüquqi bazasına daxil olan bir sənədin və ya dövlət siyasətinin hazırlanmasının təşviqi.

* Siz qərarverici şəxslərlə işçi görüş təşkil edirsinizsə, səlahiyyətli şəxsləri və ya liderləri dəvət edə və əhatə olunmalı məqamları və görüşün məqsədini göstərə bilərsiniz. Dəvət edəcəyiniz şəxslərə e -məktublar göndərə, onları sosial media vasitəsilə təşviq edə və ya digər təşkilatların yaratdığı kanallardan istifadə edə bilərsiniz.

* İşçi görüşə dəvət edilmisinizsə, suallarınızı verməyi unutmayın. İştirakınızın məqsədini, görüşün digər qonaqlarının kimlər olduğunu bilməlisiniz. Həmçinin bu görüşdə fərd olaraq, yoxsa gənclərin adından iştirak etdiyinizi dəqiqləşdirə bilərsiniz. Görüşün maddi-texniki aspektlərini və hər hansı iştirak xərclərinin olubolmayacağını soruşmaq da tövsiyə edilir. Mövcud sənəd və hesabatların (varsa) olub-olmadığını soruşa və onları qabaqcadan oxuya bilərsiniz.

* Ünsiyyət və danışıq bacarıqlarını gücləndirmək üçün dəstək istəməyiniz tövsiyə olunur. Bu növ bacarıqlar və qabiliyyətlər qərarverici şəxslərlə görüşlərdə böyük əhəmiyyət daşıyır. Siz müəyyən bir təşkilatdan dəstək istəyə və ya bu məqsədlə digər gənclər və yeniyetmələrə qoşula bilərsiniz. Məsələn, yaxşı ünsiyyət bacarıqları olduğunu düşündüyünüz bir müəllimə yaxınlaşa və bacarıqlarınızı necə gücləndirə biləcəyinizə dair məsləhət ala bilərsiniz.



## Müddətində

* Görüşü siz təşkil edirsinizsə, əvvəlcə görüşün məqsədini, həmin gün üçün gündəliyi və nəyə nail olmağa çalışdığınızı izah etmək vacibdir. Bütün iştirakçıların özlərini təqdim etməsinə şərait yaradın. Görüşdə kimin iştirak etdiyini bilmək vacibdir: bu, müdaxilə edəcəyiniz halda, strateji olmağınıza və şəbəkələrinizi gücləndirməyinizə kömək edəcək. Özünüzü təqdim etməli olduqda, hansı ölkəni, hansı təşkilatı təmsil etdiyinizi (bir təşkilat adından danışırsınızsa) bildirməyi unutmayın və təşkilatınızın və ya qrupunuzun fəaliyyətini qısaca izah edin. Missiyanın arxasında çox sayda insanların olduğunu və böyük işlərin görüldüyünü vurğulamaq vacibdir.

* Spikerləri diqqətlə dinləyin və qeydlər aparın. Onların mövqelərini qəbul etmək və hörmət etmək vacibdir - hətta onlarla razılaşmasanız belə. Bu, sağlam təcrübə mübadiləsi aparmağa, bu çərçivədə razılaşmalar əldə etməyə imkan verir. Sizə maraqlı gələn məqamları qeyd edin.

* Mübahisə yaratmaq və ya mənfi aspekt barədə mübahisə etməkdənsə, digər şəxslərlə bölüşdüyünüz ortaq məqamlara köklənin.

* İqlim missiyanızı təşviq etmək və hədəfinizə nail olmaq üçün razılaşmalar əldə etməyə çalışın. Digər insanlardan nə gözlədiyimizi bilmək vacibdir. Bəzən danışıqlar aparmalısınız: bunun üçün gənc fəal olaraq töhfə verə biləciyiniz bir şey təklif etməlisiniz, məsələn, icmadakı insanlara müəyyən məsələ üzrə təlim keçmək. Danışıqlar aparmağa nə dərəcədə hazır olduğunuzu da müəyyənləşdirməlisiniz. Hər şeyi ilk görüşdə həll etmək məcburiyyətində deyilsiniz. İrəliləyiş vaxt tələb edə bilər və siz öz amalınızdan əl çəkməməlisiniz.

* Görüşdə razılaşmalar əldə olunubsa, onlara dair görülməli olan sonrakı tədbirləri müəyyən edin. Bu, tanış olduğunuz insanlarla işə davam etmək və ən əsası, razılaşmalara uyğun olaraq irəliləyişi izləmək üçün vacibdir. Siz yazışmalar vasitəsilə, vaxtaşırı görüşlər vasitəsilə, yaxud daha qeyri-rəsmi kanallar (WhatsApp qrupları kimi) vasitəsilə əlaqə saxlamağı təklif edə bilərsiniz. Görüşdə iştirak edən şəxslərdən onların e-poçt ünvanını, telefon nömrəsini və ya vizit kartını istəməyi tövsiyə edirik.

## Sonra

* Görüşdə müzakirə edilən məsələlərə dair hesabat hazırlayın. Bu yolla, sonrakı tədbirlərə hazırlaşmaq və izləmək daha asan olacaq. Razılaşmalar əldə olunubsa, onları da hesabata daxil edə bilərsiniz. Hesabatı iştirak etmiş şəxslərlə və təşkilat və ya qrupun bütün üzvləri ilə bölüşmək vacibdir.

* Görüşdə əldə edilmiş razılaşmalarla bağlı sonrakı tədbirlər üçün plan hazırlamaq üçün digər gənclər və yeniyetmələrlə görüşün. Razılaşmaların həyata keçirilməsi üçün öz üzərinizə düşən işləri görməyiniz vacibdir. Siz öhdəliklər yarada və birgə gündəlik müəyyən edə bilərsiniz.



**Yerli səviyyədən başlayan dəyişikliklər**

Biz - Robin Martines, Edras Mexias, Elmer Qomes və Neri Rodriqes Qvatemaladan olan gənc fəallarıq. Biz iqlim məsələləri ilə bağlı işləri gücləndirmək üçün yerli hakimiyyət orqanları, qurumlar və təşkilatlarla fəaliyyət planının hazırlanmasındakı iştirakımızla bağlı təcrübəmizi sizinlə bölüşmək istəyirik. "Paz Joven" təşkilatının könüllüləri olaraq, biz bu prosesi San Luis de Xalapadakı icmamızda təşviqat aparırıq.

Bizim vəzifəmiz rəylər və məlumatlar toplamaq idi. Buna görə də biz sorğular və müsahibələr apardıq və əvvəlki tədqiqatları nəzərdən keçirdik. Biz həmçinin İcmanın İnkişafı Şurası (COCODES) və yerli orqanlarla, eləcə də icmamızdakı təşkilatlarla görüşlər keçirdik.

Yerli hakimiyyət orqanları və ya icmamızdakı təşkilatlarla görüşlərdə iştirak edəndə biz həmişə təlim kursları vasitəsilə əldə etdiyimiz biliklər sayəsində özümüzə inanırdıq.

İştirakımızdan öyrənə bildik ki, gənclər olaraq səsimizi eşitdirmək potensialımız var, lakin səsimizi eşitdirmək və daha çox insanı cəlb etmək üçün mexanizmləri təkmilləşdirməliyik. Biz həmçinin öyrəndik ki, yerli səviyyədə dəyişiklik etmək üçün daha çox iş görülməlidir və icmalarımızda olan bütün sektorları əhatə etməliyik. İqlim tədbirləri yerli səviyyədə başlayır.





**Milli səviyyədə iştirak**

Salam, mənim adım Mariya Qrasiya Kamposdur. Mən gənc fəalam və Peruda yaşayıram. Gənclər üzrə Maraq Qrupunun üzvüyəm. Bu qrup iqlim dəyişmələrinə dair dövlət siyasətlərinin monitorinqində gənclərin iştirakı proseslərini təşviq edir və gücləndirir. Bu, bizə İqlim Dəyişmələri üzrə Milli Komissiyaya töhfə vermək imkanı verəcək.
Mənim bu platformada iştirakım necə başladı? Milli Gənclər Katibliyinin dəstəyilə, Perunun Ətraf Mühit Nazirliyi Gənclər üzrə Maraq Qrupunu təşviq edirdi. Hökumət tərəfindən bu qrupa üzvlüklə bağlı gənclərə yönələn çağırışı gördüm. İştirak etməyi qərara aldım və səsvermə vasitəsilə seçildim. Qrup 18-28 yaşlı 52 gəncdən ibarətdir. Biz aşağıdakı məqsədlərlə milli orqanlarla görüşdük:

- Şəhər və regional komissiyalarda gənclərin iqlim dəyişmələri üzrə səlahiyyətlərini artırmaq;
- Dövlət siyasətlərinə nəsillərarası yanaşma tətbiq etmək;
- Hökumət və parlament vasitəsilə, ətraf mühitlə bağlı siyasətlərə daha geniş təsir etmək.

Bu baxımdan mənim üçün çox faydalı bir resurs “Gənc İqlim Fəalları üçün Alətlər Dəsti” oldu. Biz onu hətta şöbəmizdə iqlim tədbirləri üzrə planın hazırlanmasında istifadə etdik.

Tövsiyə edirəm ki, səlahiyyətli qurumların hər zaman bizim yanımızda olduğunu unutmayın. İnsanların həyat keyfiyyətini yaxşılaşdırmaq üçün, hər hansı şübhələri, narahatlıqları və ya tələblərinizi dilə gətirməkdən çəkinməyin. Bununla yanaşı, birlikdə işləyə bilməyiniz üçün işinizi, fəaliyyətinizi və əldə ediləcək məqsədləri vurğulamaq lazımdır.

**Yadda saxlayın:**
Bu görüşlərdə sizin iqlim missiyanızın həyata keçirilməsinə kömək edə biləcək razılaşmalar əldə edə bilərsiniz. Nə istəyəcəyinizi dəqiqləşdirmək vacibdir. Həmçinin, razılaşmaların yerinə yetirilməsini təmin etmək üçün müvafiq sonrakı tədbirləri izləmək də önəmlidir.

# 7 İqlim siyasətləri və alətləri üzrə məsləhətləşmələrdə və icmallarda iştirak etmək

## Qısa təsvir:

Ölkələr iqlim siyasətləri, həmçinin onların öz gündəliklərini həyata keçirmələrinə imkan verən alətlər üzərində işləməyə davam edirlər. Bu siyasət və ya alətlərdən bəziləri icmalara yönələ bilər. Gənclərin və yeniyetmələrin bu siyasətlərdə iştirakı onların ehtiyaclarını əks etdirmək və hüquqlarını qorumaq baxımından çox vacibdir.

*Bu siyasətlər və alətlər barədə daha ətraflı öyrənmək üçün: “İqlim dəyişmələri ilə mübarizə alətləri dəsti”*

Gənclər iqlim siyasətləri və alətləri üzrə məsləhətləşmələrdə və icmallarda iştirak etdikdə, uşaqların, yeniyetmələrin və gənclərin maraqlarını nəzərə alan, iqlim siyasətinin inkişafına töhfə verən perspektivlərin nəzərə alınmasında irəliləyiş əldə edilir.

İqlim siyasətləri və alətləri ilə bağlı məsləhətləşmə və ya icmaldan əvvəl və sonra, eləcə də prosesin gedişində atılmalı olan addımlarla bağlı gənc fəalların bəzi tövsiyələrini təqdim edirik.

## Əvvəl

- Prosesdə iştirak etməyə dəvət edilmisinizsə, hər hansı şübhələrinizi aydınlaşdırın. İştirakınızın məqsədi, prosesin gözlənilən nəticəsi və kimlərin cəlb olunması barədə suallar vermək çox vacibdir.

- **Bundan əlavə, siz nəzərdən keçiriləcək (artıq mövcuddursa) iqlim siyasəti və ya alətinin layihələrini və ya yekun sənədlərini istəyə və oxuya bilərsiniz.** Bu sənədlər çox vaxt uzun olduğundan, mündəricat və xülasə ilə başlamaq məqsədəuyğundur. Qabaqcadan onları oxumağa vaxtınız yoxdursa və ya bunun sizi maraqlandıran bir mövzu olduğunu düşünmürsünüzsə, yerinizi başqa birinə təklif edə bilərsiniz.

- **Ölkənizdə mövcud olan oxşar iqlim siyasətləri və ya alətləri, yaxud digər ölkələrin onları necə hazırladığı barədə oxumaq tövsiyə edilir.** Bu, nümunəvi təcrübələri və öyrənilmiş dərsləri müəyyən etməyə imkan verir. Ola bilər ki, onlar artıq mövcuddur, bu sənədlərdə mövcud olan boşluqlar doldurula bilər, yaxud bu işləri özünüz təkrarlaya bilərsiniz. Bu iqlim siyasəti və ya alətin əsas mövzusu barədə müəyyən biliklərə malik birindən dəstək istəyin. Bu, mövcud boşluqları və ehtiyacları və siyasətin onları aradan qaldırmağa kömək edib-etmədiyini müəyyən etməyinizə imkan verəcək. Siz həmçinin digər ölkələrdə və ya öz ölkənizdə oxşar proseslərdə iştirak etmiş gənclərlə əlaqə qura və məsləhət istəyə bilərsiniz.

- **Siz materialı qabaqcadan oxuyarkən qeydlər apara bilərsiniz.** Bu, icmal və ya məsləhətləşmə prosesində edəcəyiniz mümkün çıxışları və ya təklifləri hazırlamağa başlamağınıza kömək edəcək.





## Siyasət və ya aləti nəzərdən keçirərkən

* **Prosesdə iştirak edən digər gənclər və yeniyetmələrlə əlaqə qura bilərsiniz.** Bu, özünəinamınızı artırmağa kömək edəcək. Əgər yeganə iştirak edən gənc sizsinizsə, ünsiyyətdə olduğunuz başqa biri ilə əlaqə saxlaya və təcrübə və ya bilik mübadiləsi apara bilərsiniz.

* **Siz çıxışlar və şərhləriniz üçün şəxsi təcrübələrinizdən və ya biliklərinizdən istifadə edə bilərsiniz.** Məsləhətləşmə proseslərində, gənclərin və yeniyetmələrin sizə dediklərini də əhatə etmək vacibdir. Yadda saxlamaq lazımdır ki, bu, sizin iqlim missiyanızdır və siz cəmiyyətin mühüm bir sektorunu təmsil edirsiniz.

* **Siyasətin və ya alətin güclü və zəif cəhətlərini müəyyən edin** və mümkündürsə, güclü cəhətləri yaxşılaşdıracaq, zəif cəhətləri isə azaldacaq konkret təkliflər hazırlayın. Cəmiyyətin hər bir seqmentinin, xüsusilə gənclərin rolunu nəzərə alaraq, onun inklüziv olub-olmadığını yoxlaya bilərsiniz. Bu siyasətin və ya alətin uşaq və ya yeniyetmələrə həssas yanaşmasını təmin etmək, yəni bu qrupların səciyyəvi zəifliklərini nəzərə aldığından və hüquqlarının həyata keçirilməsini təmin etdiyindən əmin olmaq lazımdır. Siz həmçinin bu siyasət və ya alətin qarşılıqlı əlaqəlilik (interseksionallıq), gender aspektlərinin aktuallaşdırılması, nəsillərarası ədalət və iqlim ədaləti prinsiplərini nəzərə almasını təmin edə bilərsiniz. Bu, bütün siyasət sənədi və ya iqlim alətləri dəstində, o cümlədən onların nəticələr çərçivəsində, hədəf və göstəricilərində, eləcə də hazırlıq, icra və monitorinq prosesində nəzərə alınmalıdır.

* "Nümunəvi təcrübə" hesab edilən və sizin baxdığınız siyasət və ya alət üçün istinad kimi çıxış edə biləcək **digər oxşar siyasət və alətlər axtarın.** Siz oxşar proseslərdə iştirak etmiş digər ölkələrin gəncləri ilə əlaqə saxlaya bilərsiniz.

* **İqlim dəyişmələrinin təsirlərinin yumşaldılması və uyğunlaşma ilə bağlı rəylər verin.** Siz icmalarda iş təcrübənizə əsaslanaraq töhfə verə, yaxud gənclər və yeniyetmələrin həm iqlim dəyişmələrinə uyğunlaşması, həm də onların yumşaldılmasında iştirakı ilə bağlı müəyyən etdiyiniz əsas çətinliklərlə bağlı baxışlarınızı bölüşə bilərsiniz.

* **Dil üslubunuza fikir verin.** O, sadə, inklüziv olmalı, ayrı-seçkiliyə yol verməməlidir. Dil həm də addım atmağa ruhlandırmalıdır.

* **Əhatə dairəsinin genişləndirilməsinə dair tövsiyələr verin.** İqlim siyasəti və ya aləti hər kəsi əhatə etməlidir. Lakin bu, çox zaman baş vermir. Siz icra ilə bağlı alternativlər tövsiyə edə bilərsiniz: məsələn, sahil icmaları ilə, uyğunlaşma siyasətinin onlara göstərəcəyi müsbət təsir barədə müzakirələr.



## Sonra

- **Siz prosesə məsul şəxslərdən yekun nəticələri sizinlə bölüşmələrini xahiş edə bilərsiniz ki, baxışlarınızın yekun versiyada nəzərə alınıb-alınmadığını yoxlaya biləsiniz.** Bu görüşlər adətən dərc edilməsi nəzərdə tutulan yekun bir sənədlə yekunlaşır. Bu, vaxt aparan bir prosedurdur.

- **İqlim siyasəti və ya alətlərinin icrası və monitorinqini təşviq etmək məqsədilə digər fərdlər və ya gənclər təşkilatları ilə tərəfdaşlıq edin.** Prosesə məsul olan şəxslərlə əlaqədə qalmaq məqsədəuyğundur.



**NDC-nin yenilənməsində əhəmiyyətli iştirak**

Mənim adım Nataliya Qomesdir. Mən, Kosta-Rika Gənclər və İqlim Dəyişmələri Şəbəkəsinin sədriyəm və Kosta-Rikanın Milli səviyyədə müəyyən edilmiş töhfəsinin (NDC) yenilənməsində iştirak etmişəm. NDC - Tərəflər Konfransına üzv dövlətlərin Paris Sazişinin məqsədlərinə nail olmaq üçün götürdüyü öhdəlikləri birləşdirən bir alətdir. İştirakım müddətində, mən Gənclər və İqlim Dəyişmələri Şəbəkəsini təmsil edirdim.

Bu prosesdə iştirakım gənclərin prosesdə iştirakına yer ayrılması üçün apardığımız təşviqat işləri sayəsində mümkün oldu. Nəticədə, gənclər əsas maraqlı tərəflərdən biri hesab edildi və bu bizə bütün məsləhətləşmə prosesində və töhfələrin, xüsusilə iqlim sahəsində səlahiyyətlərin artırılması üzrə tədbirlərin yaradılmasında iştirak etmək imkanı verdi. Biz, həmçinin gənclərin müxtəlif qruplarının prosesə daxil edilməsini dəstəkləyə bildik.

Öz çıxışıma hazırlaşarkən, NDC-ləri araşdırdım, ölkəmdəki əvvəlki NDC-lərin məzmunu və cəlb olunan sektorları öyrəndim. Öz iştirakım vasitəsilə, öyrəndim ki, gənclər ekspertlərin olduğu mühitlərdə töhfələr verə bilər və bizim iştirakımız düşüncələrimizin və baxışlarımızın NDC-lərin yenilənməsi və icrasında nəzərə alınmasına imkan verir.

*Daha ətraflı burada oxuya bilərsiniz: "İqlim dəyişmələri ilə mübarizə alətləri"*



**DİM-lər üzrə hesabatvermədə iştirak etməklə, iqlim gündəliyinə necə təsir etmək olar**

Biz Su üçün Gənclər Şəbəkəsinin Nikaraqua nümayəndəliyinin üzvləriyik və sizə Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM-lər) 6.5.1 nömrəli hədəfi üçün hesabatın hazırlanmasında iştirakımız barədə məlumat vermək istəyirik. Biz Qlobal Su Tərəfdaşlığının Nikaraqua ofisinin dəvəti ilə bu prosesdə iştirak edə bildik. Hazırlanmış hesabat birbaşa Ekologiya və Təbii Sərvətlər Nazirliyi vasitəsilə Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramına təqdim edildi.
Bizim rolumuz hesabat üçün istifadə olunan alətlərin icrası, hazırlanması və qiymətləndirilməsi üzrə Əlaqələndirmə Komissiyasında iştirak etmək idi. Bundan əlavə, həyata keçirilən işlərin davamlılığını təmin etmək məqsədilə ölkədə bizim də daxil olduğumuz “Su, kanalizasiya və gigiyena sektoru üzrə Qurumlararası Komissiya” yaradıldı.

Tədbirə müxtəlif metodlarla hazırlaşdıq: bəziləri təşkilat tərəfindən təşkil edilən biliklərimizi möhkəmləndirmək məqsədilə dəvət olunduğumuz onlayn kursda iştirak etdilər. Digərləri prosesdə fəal rol oynamağımız üçün bizə təqdim olunan sənədlərlə tanış oldular və proses boyu hər bir rolu necə icra edə biləcəyimizi dəqiqləşdirmək üçün komissiya koordinatorlarına müvafiq suallar verdilər.

Dövlət qurumları və qeyri-hökumət təşkilatlarının fərqli iş üsullarının olduğunu, həqiqətəuyğun və şəffaf məlumatların idarə olunması üçün cəmiyyətin bütün təbəqələrini dinləməyin çox vacib olduğunu öyrəndik. Biz müxtəlif işçi qruplarına hörmətlə və təhlükəsiz şəkildə iştirak etməyə, hər zaman gənclərin baxış bucaqlarını irəli sürməyə imkan verən inam yarada bildik.



**Yadda saxlayın:**
Ölkənizdə və ya icmanızda yaradılmış iqlim siyasətləri və ya alətləri iqlim dəyişmələri ilə mübarizənin müxtəlif aspektləri üçün xüsusi qaydalar müəyyən edir; bu qaydaların gəncləri, onların üzləşdiyi maneələri və bu maneələri aradan qaldırmaq üçün lazım olan təklifləri nəzərə alması vacibdir.

# 8 Kampaniyaların təşkili və kampaniyalarda iştirak

## Qısa təsvir

Kampaniyalar iqlim dəyişikliyi problemlərinə dair məlumatlılığı artırır və beynəlxalq, milli və yerli səviyyələrdə qərar qəbul edənlərə və liderlərə ictimai təzyiqi artırır. Onlar həmçinin, sizə öz amalınızı ictimaiyyətə çatdırmağa imkan verir. Kampaniyalar çox müxtəlif ola bilər və müxtəlif fəaliyyət növlərini ehtiva edə bilər. Bəzi ümumi tövsiyələri təqdim edirik.

Kampaniyaların təşkilindən əvvəl və sonra, eləcə də tədbir zamanı atılmalı addımlarla bağlı digər gənc fəalların bəzi tövsiyələrini təqdim edirik.

### Əvvəl

- Kampaniyanızın məqsədini dəqiqləşdirin. Bu, tədbirlərinizi daha yaxşı müəyyənləşdirməyə kömək edəcək; iqlim dəyişikliyinə dair qanunun qəbulunu təşviq etmək məqsədi daşıyan kampaniya tullantıların toplanmasına dair kampaniya ilə eyni deyil. Tədbirləriniz məqsədinizdən asılı olacaq, ona görə də aşağıdakı suallara cavab verməkfaydalıdır: biz nə istəyirik, hansı məqsədlə və nə vaxt istəyirik? Daha sonra kampaniyanın missiyanız üçün niyə ən yaxşı seçim olduğunu müəyyən edə bilərsiniz.

- Digər oxşar aktiv kampaniyaların olub-olmadığını öyrənin. Onları təkrarlamaqdansa, qüvvələri birləşdirmək daha yaxşıdır. Dəstəyinizi təklif etmək və qoşulmaq üçün digər kampaniya aparan təşkilatlarla əlaqə saxlaya bilərsiniz. Siz bunu sosial media vasitəsilə və ya kampaniya çərçivəsində təşkil edilmiş bir tədbirdə iştirak etməklə edə bilərsiniz.

  Müxtəlif növ kampaniyalar barədə daha ətraflı burada öxuya bilərsiniz: Təşviqat Alətləri Dəsti

- Əgər siz bir kampaniyaya dəvət olunmusunuzsa, bu kampaniyadakı rolunuzu başa düşmək üçün sizə lazım olan bütün sualları verə bilərsiniz. Kampaniyanın digər gəncləri və ya yeniyetmələri də əhatə edib-etmədiyini müəyyən edə bilərsiniz. Soruşmaqdan qorxmayın. Dəqiq bilmək daha yaxşıdır.

- Başqa oxşar aktiv kampaniyalar yoxdursa, öz kampaniyanıza başlaya bilərsiniz. Həyata keçirmək istədiyiniz kampaniya növünü seçin. Hər bir kampaniya növü fərqli şəkildə həyata keçirilir. Bu, hədəfinizdən və kimə təsir etmək istədiyinizdən çox asılıdır.

- Təşkilatçı komanda qurun. Siz kampaniyanın təşkili üçün komanda formalaşdırmaq üçün digər gənclər və yeniyetmələri cəlb edə və onların hər birinə vəzifələr təyin edə bilərsiniz. Müxtəlif əhali qruplarından gəncləri daxil edə bilərsiniz: komandada müxtəliflik və inklüzivlik nə qədər çox olarsa, o qədər yaxşıdır. Gender bərabərliyinin təmin edilməsi də vacibdir.



* Hədəf auditoriyanızı müəyyən edin. Təsir etmək istədiyiniz insanları və ya qrupları müəyyən etməyiniz, habelə hansı səviyyədə təsir göstərmək istədiyinizi (icma və ya yerli, milli, regional və ya qlobal) dəqiq bilməyiniz vacibdir.

*Unutmayın ki, sizin hədəf auditoriyanız məktəbinizdəki yeniyetmə qızlardan başlayaraq ölkənizdəki hər kəsə qədər dəyişə bilər.*

* Kampaniya mesajınızı qərarlaşdırın. Sadə, lakin güclü bir hekayə təqdim etmək vacibdir. Sadə struktur belə ola bilər: kim + nə istəyirik və ya nə lazımdır + nə üçün?

* Kampaniyanız üçün ittifaqlar formalaşdıra biləcək liderlər və ya təşkilatlarla əlaqə qurun. Birlikdə kampaniyalar yarada biləcəyiniz müttəfiqlər axtarın. Fikrinizdəki kampaniyanın məqsədini və növünü aydın bəyan etməyi unutmayın. Başqa insanlar və ya təşkilatlarla əməkdaşlıq etdiyiniz zaman kampaniyanın növü dəyişə bilər. Bu, prosesin təbii hissəsidir. İrəli sürülən təkliflərlə bağlı müttəfiqlərinizlə konsensusa gəlməyiniz vacibdir.

* İnsanların asanlıqla icra edə biləcəyi praktiki tədbirlər təklif edin. Bu yolla kampaniyanız daha çox adama çatacaq. Siz tədbirləri, gözlənilən nəticələri və məsuliyyəti öz üzərinə götürəcək şəxsləri əks etdirən strategiya hazırlaya bilərsiniz. Hər bir tədbir üçün fərdi strategiyanın olması vacib deyil, lakin kampaniya çərçivəsində hazırlanmış hər bir tədbirin digərləri ilə uzlaşması və təklif olunan məqsədə çatmağa kömək etməsi vacibdir.

* Kampaniyanın təşkilatçıları üçün dəstək və ya təlim axtarın. Bu dəstəyi icmanızdakı digər şəbəkələrdən və ya təşkilatlardan əldə edə bilərsiniz. Siz həmçinin digər iqlim liderlərindən və ya fəallarından dəstək istəyə bilərsiniz; ictimai natiqlik və ya qərar qəbuletmə kimi bacarıqları daha da inkişaf etdirmək üçün digər bölmələrdə verdiyimiz məsləhətlərə nəzər yetirin.

* Əsas mesajları paylaşın. Kampaniya çərçivəsində müxtəlif tədbirləri həyata keçirərkən, daha çox insanın missiyanıza qoşulması üçün əsas mesajlar haqqında məlumat yaymağı unutmayın. Kampaniyada olan insanları da həmin mesajları paylaşmağa təşviq edin. Əsas mesajların dinc şəkildə yayılmasını təmin edin.

*Əsas mesajlarla bağlı daha ətraflı bu vəsaitin əvvəlində - "Ümumi tövsiyələr" bölməsində oxuya bilərsiniz*

* Kampaniyanız haqqında təşviqat aparın. Məzmunu sosial mediada yaymaq və ya öz növbəsində bu məzmunu liderlər və influenserlər vasitəsilə geniş auditoriya ilə paylaşmaq vacibdir. İnstaqram paylaşımı geniş əhatə dairəsinə malik ola bilər və daha çox insanı cəlb edə bilər.



- Mətbuatı cəlb edin. Mətbuatı kampaniya fəaliyyətlərində şəxsən və ya onlayn iştirak etməyə dəvət edə bilərsiniz. Bunu sosial media vasitəsilə konkret jurnalistlərlə əlaqə saxlayaraq edə bilərsiniz.

- İnnovativ tədbirlər hazırlamağa çalışın. Tədbirləri hazırlayarkən incəsənət və ya rəqəmsal mediadan istifadə edə və ya icmanızda strateji nöqtələr axtara bilərsiniz. Təsir etmək istədiyiniz auditoriyanı və kampaniyanın məqsədini həmişə yadda saxlayın: bütün tədbirlər uyğun olmaya bilər.

## Sonra

- Əldə etdiyiniz irəliləyişi, o cümlədən tədbirləri, əhatə dairəsini və nailiyyətləri özündə əks etdirən kampaniya hesabatı hazırlayın. Bu, kampaniyada iştirak edən və ya onu dəstəkləyən insanlar qarşısında hesabatlılığa kömək edir. Məqsədlərə çatmamısınızsa, onlara doğru nə dərəcədə irəlilədiyinizi izah edə bilərsiniz.

- Hansı növbəti tədbirlərin görülməli olduğunu, kampaniyanın əhatə dairəsinin necə genişləndirilə biləcəyini və ya hədəflərinizə doğru daha yaxşı irəliləmək üçün zəruri olan dəyişiklikləri müəyyənləşdirin. Əsas məqsədinizdən yayınmadan, baş verə biləcək mümkün dəyişikliklərə uyğunlaşa bilməyiniz vacibdir.

- Daha çox insanı  cəlb etmək üçün daha çox təşkilatla əlaqələr qurun və şəbəkənizi genişləndirin. Siz hər zaman fəaliyyətə çağırışları gücləndirə və kampaniyanı missiyanızın yalnız bir hissəsi kimi düşünə bilərsiniz.



**HEY: bizim qlobal səviyyəyə yüksələn regional kampaniyamız**

Salam, biz Eşli Leşli və Abiqeyl Conson “Sağlamvə Ekologiya dostu Gənclər “ (HEY) kampaniyasının səfirləriyik. Sizə kampaniyamıza başlamaq və onun uğurunu təmin etmək üçün göstərdiyimiz səylərdən danışmaq istəyirik. İlk öncə qeyd edək ki, HEY kampaniyası Karib hövzəsi regionunda başlayıb və məqsədi sağlam və ekoloji təmiz həyat tərzini qəbul edən, eləcə də sadəcə iqtisadi artımın deyil, həyat və ləyaqətin prioritetləşdirildiyi inklüziv cəmiyyətlərin qurulması səylərinə rəhbərlik edən gənc nəsil yetişdirməkdir.

*Müxtəlif ölkələrdən iyirmi üç gənc (Əfqanıstan, Aruba, Baham adaları, Banqladeş, Barbados, Butan, Braziliya, Kamerun, Dominika, Dominikan Respublikası, Ekvador, Qana, Haiti, Yamayka, Hindistan, Meksika, Nepal, Nigeriya, Pakistan, Seneqal, Trinidad və Tobaqo, Uqanda və ABŞ) kampaniyada iştirak edir. Bundan əlavə, dövlət və qeyri-dövlət qurumları, vətəndaş cəmiyyəti kampaniyamızı dəstəkləyir.*

İlk addımlarımız bunlar idi:
- nail olmaq istədiyimiz məqsədləri və onlara nail olmaq üçün lazım olan tədbirləri özündə əks etdirən bir gündəlik müəyyən etmək;
- tərəfdaşlar, o cümlədən bizimlə eyni məqsədləri və gələcəyə baxışı bölüşən təşkilatlar axtarmaq;
- təklif olunan ideyaları birlikdə həyata keçirməyə başlamaq üçün gənclərin cəlb olunması və seçimini təşkil etmək.

Hesab edirik ki, qarşılaşdığımız əsas maneə virtual mühitə uyğunlaşmaq idi, çünki kampaniya pandemiyanın lap əvvəlində başlamışdı və bu, bizi bütün fəaliyyətləri onlayn keçirməyə məcbur etdi. Bu proses əvvəlcə çətin olsa da, son nəticədə kampaniyanın əhatə dairəsini genişləndirməyə və bütün dünyada daha çox gənclə əlaqə saxlamağa imkan verməklə kampaniyanın xeyrinə oldu.

Kampaniyanın aşağıdakı səbəblərdən uğurlu olduğunu hesab edirik:
- Öncədən göstərdiyimiz səylər və fədakarlıq və gənc HEY səfirlərinin səyləri.
- Kampaniyanın bütün mərhələlərində tərəfdaşlarımızdan aldığımız dəstək.
- UNICEF və Uşaqların Ətraf Mühit Hüquqları Təşəbbüsü ilə əməkdaşlıqda, İqlim Dəyişmələri və Sağlamlıq üzrə Qlobal Gənclər Şəbəkəsi Sammiti kimi tədbirlər vasitəsilə əhatə dairəsini genişləndirmək imkanı.
- Karib hövzəsində İqlim Fəaliyyəti üzrə Tələbə Bəyannaməsinin birgə hazırlanması, eləcə də əlilliyi olan 56 idmançının imzaladığı İqlim Fəaliyyətinə Birgə Çağırışın təqdim olunması.

# 9 İqlim tədbirləri üçün təşviqat və lobbiçilikdə iştirak

Təşviqat iqlim tədbirləri üçün çox vacibdir, çünki o, iqlim dəyişmələri ilə bağlı qərarlara təsir göstərməyə imkan verir. Qərar qəbul edənlərə yaxınlaşmağın yolları ölkədən-ölkəyə dəyişsə də, bəzi daha ümumi tövsiyələr aşağıda təqdim olunur.

Lobbiçilikdən əvvəl və sonra, eləcə də lobbiçilik zamanı atılmalı addımlarla bağlı gənc fəalların bəzi tövsiyələrini təqdim edirik.

Lobbiçilik ölkədə qanunvericilik proseslərinə və dövlət siyasəti ilə bağlı qərarlara təsir göstərməyə yönəlmiş fəaliyyətlər məcmusudur. Lobbiçiliyin sübuta və etibarlı məlumatlara əsaslanması vacibdir. Lobbiçilik bəzən yanlış olaraq korrupsiya ilə əlaqələndirilir. Reallıqda dövlət siyasəti üçün təşviqat mühüm praktikadır və onun şəffaf və etik şəkildə həyata keçirilməsi vacibdir[2].

## Əvvəl

* Lobbiçilik vasitəsilə əldə edilməli məqsədi müəyyən edin. Bu, real bir məqsəd olmalıdır. Məsələn, siz yerli hökumətinizin iqlim dəyişmələrinə uyğunlaşma planı hazırlamasını istəyirsinizsə, məqsəd yerli hökumətinizin iqlim dəyişmələrinə uyğunlaşma planı hazırlamasını təmin etmək olmalıdır.

* Hədəf auditoriyanızı müəyyən edin. Lobbiçilik etdiyiniz məsələyə hansı qurumun cavabdeh olduğunu müəyyən edə, eləcə də hansı səlahiyyətli şəxslərin bu məsələ üzrə qərarlar verdiyini öyrənə bilərsiniz. Daha sonra onlar barədə əvvəlcədən daha çox məlumat əldə etmək üçün müəyyən araşdırma apara və ortaq nöqtələrinizin olub-olmadığını müəyyən edə bilərsiniz. Məsələn, medianın və ya insanların sosial mediada nələri müzakirə etdiyini araşdıra bilərsiniz.

* Qərarların verildiyi konteksti təhlil edin. Bu qərarlardan bəziləri Qurultayda, ölkə rəhbərliyi və ya yerli hökumət tərəfindən verilir və bu mühitlərin hər birində fərqli dinamika mövcuddur ki, onları başa düşməyiniz vacibdir. Siz həmçinin, qarşı mövqedə kimlərin olduğunu müəyyən edə bilərsiniz: iqlim əleyhinə lobbiçilik aparan qruplar da mövcud olur və onların müəyyən edilməsi mühümdür.

* Sizin məqsədinizlə əlaqədar artıq başlamış başqa bir lobbiçilik prosesinin olub-olmadığını öyrənin. Çox vaxt digər şəxslər və təşkilatlar sizinlə eyni məqsəd üzərində işləyir və artıq həyata keçirilməkdə olan müəyyən proseslər mövcud olur. Paralel bir proses yaratmaq əvəzinə, siz öz iştirakınızı artıq lobbiçilik edən qruplarla əlaqələndirə bilərsiniz.

* Siyasi lobbiçilik üçün hansı tədbirləri təbliğ edəcəyinizi müəyyən edin. Tədbiri, məsul şəxsi, məzmunu, vaxtı və resursları göstərən plan yaratmaq məqsədəuyğundur. Ən çox istifadə edilən tədbirlərdən bəzilərinə qeyri-zorakı nümayişlər, məktub göndərmək, ictimai təbliğat və təzyiq vasitəsi kimi sosial şəbəkələrdən istifadə etmək daxildir. Hər bir şəxsin bu işlərə görə üzərinə öhdəlik götürməsi zəruridir.

## Müddətində

- Müəyyənləşdirilmiş fəaliyyətləri icra edin, lakin sərbəstliyinizi saxlayın. Bunu hər zaman hörmətlə və dinc şəkildə edin. Məqsədinizə köklənməyi unutmayın. Tədbirləri icra etdikcə, bəzilərinə dəyişikliklər edilə biləcəyini, yaxud digərlərinin əlavə edilə biləcəyini görə bilərsiniz. Buna görə də, dəyişikliyə açıq olmaq faydalıdır.

- Məlumatlar bölüşün. Siz qərarverici orqanlar qarşısındakı lobbiçilik fəaliyyətinizin əsas məsələsi ilə bağlı müvafiq məlumatları bölüşə bilərsiniz: bu, rəqəmsal sənədlər, fiziki sənədlər, videolar və s. ola bilər. Bu, qərarverici orqanların məlumatlı qərarlar verməsinin yeganə yoludur.

- Məlumatlılığı artırın. Qərarverici orqanlarla təmasdasınızsa, missiyanızın təməlində dayanan məsələlər barədə məlumatlılığı artırmaq və müzakirə aparmaq üçün görüşlər təşkil edə bilərsiniz. Siz bu görüşləri həmçinin sizin missiyanıza və lobbiçilik fəaliyyətinizə qoşulmaqda maraqlı olan digər şəxslərlə keçirə bilərsiniz.

*Bax: "Səlahiyyətli şəxslərlə görüşlərdə iştirak" bölməsi*

## Sonra

- Vaxt ayırdıqları üçün təşəkkür edin. Qərarverici şəxslərin iştirakından sonra, onlara məktub göndərərək ayırdıqları vaxta görə təşəkkür edə, növbəti tədbirləri xatırlada və missiyanızın dəstəklənməsinin zəruriliyini vurğulaya bilərsiniz.

- Qərarverici şəxslərin fəaliyyətini izləmək. Bunu media vasitəsilə, rəsmi məktublara nəzər salmaqla, yaxud sosial şəbəkələr vasitəsilə edə bilərsiniz. Çünki bu, müasir dövrdə qərarverici şəxslərin öz tədbirləri və gündəliyi haqqında məlumatları paylaşması üçün əsas üsullardan biridir.

- Digər şəbəkələr və ya lobbiçilik mühitlərinə qoşulun. Yerli, milli və beynəlxalq gündəliklərə iqlim tədbirlərinin daxil edilməsi üçün lobbiçilik edən təşkilatlar və şəxslər var. Siz öz icmanızda və ya ölkənizdə olan bu növ təşkilatları və ya şəxsləri müəyyən edə və iştirakınıza şərait yaratmalarını xahiş edə bilərsiniz.



# 10 Əlaqə şəbəkənizin gücləndirilməsi (şəbəkələşmə)

İqlim dəyişikliyi kollektiv problem olduğundan, onun həlli də kollektiv xarakter daşımalıdır. Buna görə də, sizin öz missiyanızın icrasına və ya digər fəal şəxslərə qoşulmağınıza imkan yaradacaq əlaqə şəbəkəsi yaratmaq vacibdir. Siz, əlaqə şəbəkənizi gücləndirməyinizə imkan yaradacaq bir çox platformalar tapacaqsınız. Buna görə də, onlardan maksimum yararlanmalısınız. Nə qədər çox insan birlikdə hərəkət etsə, təsir də o qədər böyük olacaqdır.

Şəbəkənizi gücləndirmək üçün bəzi tövsiyələr təqdim olunur.

* Şəbəkələşməniz üçün bir hədəf təyin edin. Bu, sizə kiminlə əlaqə saxlamalı olduğunuzu bilməkdə kömək edəcək. Hədəf, missiyanıza uyğun təyin edilməlidir.

* Artıq malik olduğunuz əlaqələri sistemləşdirin. Siz dostlarınızı, sinif və ya tələbə yoldaşlarınızı, iş yoldaşlarınızı, qonşularınızı və birgə işlədiyiniz digər gənc fəalları cəlb edə bilərsiniz. Onların nə etdiyini bilmirsinizsə, öyrənin: bəlkə də töhfə verə biləcək şəxslər ola bilər. Siz hətta mövcud kontaktlarınızın qeydiyyatını apara və yenilərini əlavə edə bilərsiniz.

* Şəbəkələşmək istədiyiniz şəxslərin qruplarını müəyyən edin. Ortaq missiyaya malik olduğunuz, yaxud bir-birinizi tamamlayacaq fərqli iqlim hədəflərinə malik olan şəxsləri axtara bilərsiniz. Onlar sizə ilham verən, yaxud sizin mövzunuzla əlaqəli sahədə liderlər olan şəxslər ola bilər. Siz həmçinin, kreativ yanaşa və məhz sizin mövzu üzrə işləməsə də, fəaliyyət üçün sizinlə eyni əsaslara malik şəxslərlə, məsələn insan hüquqları fəalları ilə əlaqə qura bilərsiniz. Daha geniş auditoriyaya çıxmaq üçün kütləvi informasiya vasitələrində işləyən şəxsləri də müəyyən edə bilərsiniz.

* Siz şəbəkələşmə üçün mövcud olan müxtəlif imkanlar və platformaları qeyd etdiyiniz bir plan tərtib edə bilərsiniz. Bu platformaların gənclər və yeniyetmələri əhatə etməsi vacibdir. Belə platformalar yoxdursa, özünüz yarada bilərsiniz. Bunu məsələn, gənclərin video zəng və ya üzbəüz görüş vasitəsilə virtual iclasını təşviq etməklə edə bilərsiniz. Siz həmçinin böyüklərlə danışaraq, onları öz məkanlarını gənclər və yeniyetmələrə açmağa təşviq edə bilərsiniz.

* Üzbəüz tədbirlərdə təyin olunan vaxtdan öncə olun. Erkən çatdığınız zamandan istifadə edərək, daha çox insanla qeyri-rəsmi formada söhbət apara bilərsiniz. Üzbəüz tədbirlərdə adətən qısa fasilələr verilir. Onlardan istifadə edərək, digər iştirakçılarla söhbət edin.

* Platformanın üzbəüz olması şərt deyil. Siz sosial media vasitəsilə də şəbəkələşə bilərsiniz. Şəbəkənizə qoşulmasını istədiyiniz şəxslərlə sosial media profilləri, rezyumeləri və ya portfelləri vasitəsilə əlaqə saxlayın. “LinkedIn” şəbəkəsi maraqlı olduğunuz şəxslərlə tanış olmaq üçün yaxşı platformadır. O, məsələn, virtual paneldə, görüşdə və ya videoda birini gördükdə, yaxud maraqlı hesab etdiyiniz bir məqalə oxuduqda faydalı ola bilər.

* Dostlarınızla və ya ailənizlə qabaqcadan məşq edə bilərsiniz. Bunu müxtəlif formalarda edə bilərsiniz: bir nəfər sizin söhbət etmək istədiyiniz bir şəxs rolunu oynaya bilər və siz mümkün bir dialoqu təcrübədən keçirirsiniz. Təcrübə qazandıqca, bu, daha da asanlaşacaq. Siz müxtəlif situasiyaları təcrübədən keçirə bilərsiniz: məsələn, liftdə, iqlim dəyişmələri ilə bağlı tədbirdə və ya paneldə biri ilə tanış olmaq.

* Vizit kartının olması faydalıdır. Bu, çap formada ola bilər - bu halda maliyyə vəsaiti tələb olunur. Digər variant mobil telefonla paylaşıla bilən, yaxud QR kodla oxuna bilən virtual kartdır. Siz “LinkedIn”-dən də istifadə edə bilərsiniz. Bu karta sizin adınız və əlaqə məlumatlarınız daxil olmalıdır. Bu, sizin telefon nömrəniz, e-poçt ünvanınız və ya sosial media profiliniz ola bilər.

* Tanıdığınız biri varsa, sizi təqdim etməyini xahiş edə bilərsiniz. Lakin bəzən biz tək oluruq və özünəinamlı olmaq və söhbətə başlamaq vacibdir.

* Söhbətə salamlamaqla başlaya və öz adınızı və mənsub olduğunuz təşkilatı bildirməklə davam edə bilərsiniz. Hər hansı təşkilata mənsub deyilsinizsə, sizi maraqlandıran mövzuları deyə, digər şəxsdən adını və nə ilə maraqlandığını soruşa bilərsiniz. Siz həmçinin, kimlərin tədbirdə olacağını və əlaqə qurmaq istədiyiniz konkret şəxsləri müəyyən edə bilərsiniz. Bu şəxslərin hər biri üçün onlara maraqlı gələ biləcək və qeyri-rəsmi söhbətə təkan verə biləcək bir neçə sual hazırlaya bilərsiniz.



* Yeni ideyalara açıq olun. Şəbəkələşmə zamanı siz öz ideyalarınızdan fərqli ideyalarla qarşılaşa bilərsiniz. Məhz bunu əsas gətirərək mümkün əlaqələrdən imtina etməyin; əvvəlcə ortaq cəhətlərin olub-olmadığını yoxlayın.

* Hörmət şəraitində fikir mübadiləsi aparın. Hər zaman hörmət çərçivəsində fikir mübadiləsi aparın. Səmərəli dialoq və mübadilədən sonra, bu şəxsin sizin birgə işləmək üçün əlaqə qurmaq istədiyiniz biri olub-olmadığını daha yaxşı başa düşəcəksiniz.

* Səbirli olun, şəbəkələşmə uzun müddət tələb edə bilər.

* Kiminsə əlaqə məlumatlarına sahib olmaq öz-özlüyündə sizin üçün avtomatik olaraq fayda verməyəcək: siz münasibətləri inkişaf etdirməlisiniz. Şəbəkə qurmaq istəyənlər üçün qayda 24-48 saat ərzində növbəti addımı atmaqdır. Bunu etmək üçün sürətli yollardan biri e-məktublardır. Lakin bu sizin əldə etdiyiniz əlaqə vasitəsindən də asılıdır: telefon zəngi və ya sosial şəbəkədən də istifadə edə bilərsiniz.



**Şəbəkələşmənin əhəmiyyəti**

Mənim adım Kantuta Kondedir. Mən Aymara Çoxsahəli Tədqiqatlar Mərkəzi (CEM-Aymara) və Latın Amerikası və Karib hövzəsinin Yerli Xalqlarının Gənclər şəbəkəsinin üzvüyəm. Sizə öz şəbəkələşmə təcrübəm barədə danışmaq istərdim.

Hər şey mənim Birləşmiş Millətlər Təşkilatının Yerli Etnik Qrupların Məsələləri üzrə Daimi Forumunun XV sessiyasında, yerli etnik qrupların təşkilatlarının qlobal toplantısında iştirakımla başladı. Bu tədbir mənə digər təşkilatlarla tanış olmaq imkanı verdi. İlk əlaqəni Qlobal fraksiya ilə qurdum: söhbətə başlamaq üçün ortaq mövzu kimi biz yerli etnik qruplara mənsub olan uşaq və gənclərin hüquqlarından istifadə etdik. Qlobal fraksiyanın Latın Amerikası və Karib Hövzəsi səviyyəsində Yerli Gənclərin Şəbəkəsinə malik olması məni təəccübləndirdi. Onların vasitəsilə mən həmin şəbəkə ilə əlaqə qura bildim və icma səviyyəsində tədbirlər görməyə, həmçinin regional səviyyədə məlumat və təcrübə mübadiləsində iştirak etməyə başladım.

Şəbəkələrimizi daima gücləndirməyə davam etdiyimiz üçün hələ də davam edən bu təcrübəyə əsaslanaraq, sizə faydalı və ya həvəsləndirici ola biləcək bəzi situasiyalar haqqında danışmaq istərdim:

- Qlobal fraksiyadan olan bir nümayəndəni əlaqə quracağım ilk şəxs kimi müəyyən etdim. Çünki o tədbirdə çıxış edirdi və Boliviya gənclərinin adını çəkdi. Çıxışının sonunda ona yaxınlaşdım və birdən bizim söhbətimizi eşidən digər gənclər də yaxınlaşdı. Çıxışlara diqqətlə qulaq asmağı unutmayın.
- Mən bu gənclərlə əlaqə qurduqdan sonra biz Daimi Forum sessiyalarında bir-birimizə çox dəstək olduq və Forumdan sonra birgə kampaniyalar vasitəsilə bir-birimizi dəstəkləməyə davam etdik. Tədbirlərimizin təsir dairəsini genişləndirmək üçün bütün təşkilatlar bir-birini tamamlayırdı. Şəbəkələşmə bizə məqsədlərimizə çatmaqda kömək etdi.
- Biz hər bir şəxsin məlumatlarını əks etdirən bir siyahı yaratmaqla əlaqələrimizi möhkəmləndiririk. Bu siyahını daha çox əlaqələrlə doldurmağa davam edirik: əslində, Yerli Etnik Qrupların Gənclərinin Şəbəkəsinin bizim regionumuz üzrə veb-saytında bizim yerləşdirdiyimiz anket formasında qeydlər edə və öz şəbəkənizi gücləndirməyə davam edə, eyni zamanda bizim təşkil etdiyimiz tədbirlərdə iştirak edə bilərsiniz.



# 11 İqlim tədbirləri üçün ittifaqlar qurmaq

Şəbəkələşmə vasitəsilə siz daha da irəli gedə və iqlim missiyanızın əhatə dairəsini artırmağınıza imkan verən ittifaqlar qura bilərsiniz. Bu baxımdan, aşağıdakı təcrübəni oxumağınızı tövsiyə edirik.

İttifaqların qurulması yolları ilə bağlı digər gənc fəalların bəzi tövsiyələrini təqdim edirik.

* **Ortaq məqsədlər təyin edin.** Sizi iqlim missiyası ətrafında birləşdirən məsələlər əsasında, ittifaq kontekstində səylərinizi istiqamətləndirəcək məqsədlər təyin edə bilərsiniz.
* **Məqsədləri müzakirə edin.** Hər hansı ittifaqda, çox vaxt insanların və ya təşkilatların müxtəlif məqsədlərinə nail olmaq üçü xüsusi diqqət yetirilməli olan cəhətlərlə bağlı danışıq aparmaq lazım olur. Buna görə də missiyanızdan əl çəkmədən necə davam edəcəyinizlə bağlı danışıqlar aparmaq vacibdir.
* **İttifaqda real icra müddətləri təyin edin.** Yadda saxlayın ki, məqsədlərə nail olmaq lazımdır. Buna görə də son icra tarixlərinin real olması vacibdir.
* Məqsədlər, vəzifələr və razılaşdırılmış müddətləri əhatə etməklə, **ittifaqın yaradılmasına dair protokolları göndərdiyinizə əmin olun.** Bu cür sənədlərə veriləcək rəylər və şərhlər ittifaqı təkmilləşdirəcəkdir. Siz, həmçinin ittifaqın hər bir tədbirinin qeydiyyatını apara bilərsiniz.
* Bütün tərəflərin razı olması şərtilə, daha çox şəxslər və təşkilatlar əlavə edə bilərsiniz.
* İqlim missiyanızın yönəldiyi problemdən təsirlənən şəxslərlə əlaqələr qurun. Bu insanlar problemlərdən çox yaxşı xəbərdar olduğundan, ittifaqınızın mühüm bir hissəsinə çevrilə və təklif və tədbirlərə töhfə verə bilər





**Gənclərin rəhbərlik etdiyi iqlim tədbirləri üçün ittifaq**

Mənim adım Paloma Kostadır və sizə Latın Amerikası və Karib hövzəsi səviyyəsində ittifaqlar quraraq, bu regiondan olan gənclərdən ibarət şəbəkə yaratmaq və iqlim dəyişmələri ilə mübarizə tədbirlərinin əsas elementlərini müəyyən etmək üçün regional gənclərin məsləhətləşməsini təşkil etməklə bağlı təcrübəmdən danışmaq istəyirəm.

Bunlar regional ittifaqlar olduğu üçün sosial şəbəkələrim vasitəsilə uyğun profillərə malik şəxsləri müəyyənləşdirməyə başladım. Bəzilərini isə digər insanların tövsiyələri ilə müəyyən etdim. Əlaqələr əsasən WhatsApp vasitəsilə baş tutdu.

Müxtəlif fərdlərlə əlaqə qura bildikdən sonra, biz məsələlər haqqında danışmağa başladıq və "Dərin Demokratiya" metodundan istifadə edərək, hamımız arasında kollektiv şəkildə bir məqsəd təyin edə bildik. Bütün bu proses virtual aparıldı.

Məncə, ittifaqın qurulmasında üzləşdiyimiz əsas çətinlik iştirak etməsi nəzərdə tutulan insanların xarakteristikasındakı fərqlər idi. Müxtəliflik bütün prosesin ayrılmaz elementlərindən biri idi. Lakin bu qədər fərqli xarakteristikaya malik şəxslərin bir araya gətirilməsi çətin idi. Çünki bəziləri çox fəal və operativ olduğu halda, digərlərinin iştirak etmək üçün inam qazanması daha uzun vaxt tələb etdi. Məncə bizim irəliləməyimizin səbəbi müxtəlifliyin zəruri olduğunu başa düşməyimiz və hər kəsin töhfə verə bildiyi dialoq və söhbətlər təşkil etməyimiz idi.

Hazırda biz ittifaqı daha da möhkəmləndiririk. Sizə vermək istədiyim ümumi məsləhət, əvvəlcədən əldə edilmiş razılaşmaları müəyyən etmək, son icra tarixləri təyin etmək və bütün prosesi açıq saxlamaqdır.



Mətbuatla tərəfdaşlıq etmək üçün bəzi əlavə tövsiyələr təqdim edirik.



* **Media nümayəndələrinin daha çox diqqətini cəlb etmək istəyirsinizsə, öz missiyanızı xüsusi formada təqdim etməlisiniz.** Siz böyük nəqli təqdimatlar, tendensiyalar, hekayələr, hər kəsə maraqlı olan və yadda saxlanılma potensialı olan hadisələr, yaxud digər mövcud xəbərlərlə əlaqəli hər hansı bir şey daxil edə bilərsiniz.

* **Mediaya müraciətinizin səbəbini dəqiqləşdirin. Aydın məqsəd təyin edin və nəyə nail olmaq istədiyinizi müəyyən edin.** Hansı media növünə üstünlük verdiyinizə qərar verin. Sosial media bu günlərdə çox vacib olsa da, siz radio, çap mətbuatı və televiziya vasitəsilə daha geniş auditoriyalara çıxış əldə edə bilərsiniz.

* **Qısa və konkret olmağa çalışın. Mediada işləyən insanlar adətən çox gərgin qrafikə malik olur və söhbət üçün vaxtları çox az olur.** Çatdırmaq istədiyiniz fikirləri əvvəlcədən hazırlamağınız heç nəyi unutmamağınız baxımından faydalıdır.



* **Media ilə əlaqə saxlayıb öz missiyanız barədə məlumatlandırın.** Ən çox istifadə olunan yol press-reliz yazmaqdır. Press-reliz sizin hekayənizin və ya missiyanızın icmalıdır. O, medianın diqqətini cəlb etmək üçün istifadə edilir.

* **Missiyanız çərçivəsində keçirilən tədbirlərə medianı dəvət edin.** Siz bunu sosial media vasitəsilə edə, e-məktub yazaraq əlaqə saxlaya, yaxud yaşadığınız ərazidə yerləşirsə, ofislərinə gedə bilərsiniz. Tədbirlərinizdə media nümayəndələrinin iştirakı daha geniş auditoriyanı əhatə etməyinizə imkan verəcək.

* **Hər zaman dürüst olun və sırf medianın diqqətini çəkmək üçün mesajlarınızı dəyişməkdən çəkinin.** İnsanların siz və işiniz barədə yanlış məlumat almağındansa, onu heç eşitməməkləri daha yaxşıdır.



**Media ilə humanist münasibətlər qurmaq**

Mən, Eyal Vayntraub, Argentinada yaşayan gənc fəalam və “Gənclər İqlim Uğrunda” təşkilatının üzvüyəm. İqlim və ekoloji missiya ilə bağlı mesajı təbliğ etmək üçün media ilə necə işlədiyimi sizə danışmaq istəyirəm. Əməkdaşlıq etdiyim media orqanlarına sosial şəbəkələri, virtual və çap formada olan qəzeti, müxtəlif jurnalları və televiziya kanalı olan “Perfil” daxildir. Hər şey belə başladı: ekologiya və ətraf mühitlə bağlı məsələləri koordinasiya edən jurnalist əlaqə məlumatlarımızı yerləşdirdiyimiz press-relizimizi görmüş və keçirdiyimiz aksiya haqqında ətraflı məlumat almaq üçün bizimlə əlaqə saxlamışdı.

Bu ilk qarşılıqlı əlaqədən sonra, biz söhbətə başladıq və suallara cavab verdik, materiallar bölüşdük. Biz adətən WhatsApp və ya telefon zəngi ilə söhbət edirdik. İlk vaxtlarda, hələ yüksək səviyyədə inam olmadığından, mən səs yazıları göndərmirdim. Çünki digər şəxs məşğul olarsa, bu, bezdirici ola və kommunikasiyanı zəiflədə bilər.

Üzləşdiyimiz əsas çətinlik sadəcə bir dəfəlik işıqlandırılma əvəzinə, mediaya daimi informasiya axınını təmin etmək idi. Bunun üçün jurnalistlə səmimi fərdi münasibət qurmaq vacib idi. Təşkilatınızda və ya qrupunuzda məhz kimin bu əlaqəni quracağını qərarlaşdırmaq lazımdır. Həmçinin, şəxsən görüşmək və qarşılıqlı faydalı şəkildə necə işləyə biləcəyinizi müzakirə etmək faydalıdır. Yadda saxlayın ki, biz sadəcə ekoloji jurnalistlərlə işləməyə səy göstərməməliyik.

Bu qarşılıqlı əlaqə və ittifaqların qurulması vasitəsilə, həyata keçirdiyimiz bütün kampaniyaları və kütləvi tədbirləri ictimailəşdirə bilmişik. Biz milli məsələlərlə bağlı məsələlərlə bağlı rəy məqalələri dərc etdirə və bununla ictimai gündəmə təsir edə bilmişik. Bu bizə həm də “Gənclər iqlim uğrunda” təşkilatı barəsində məlumatları yaymağa imkan verirdi. Çünki onlar bizə hətta hər iki həftədə bir dəfə olmaqla köşə yazısı yazmağı təklif etmişdi.



# Psixi sağlamlığınızın qeydinə qalmaq

İqlim fəallığı çox maraqlıdır, lakin o, həm də yorucu ola bilər. Biz çaşqınlığa düşə, iqlimlə bağlı təşviş keçirə və ya həvəsdən düşə bilərik. Əsas məsələ bu baş verdikdə nə ediləcəyini bilməkdir.



İqlimlə bağlı təşviş və ya ekoloji təşviş ətraf mühitin məhv olmasına dair xroniki qorxudur və iqlim dəyişmələri böhranından narahat olan getdikcə daha çox insana təsir edən, yeni meydana çıxmış psixoloji pozuntudur.[3]

**Baş verənləri anlamağa çalışın.** Faydalı addımlardan biri sizə baş verənləri etiraf etmək, əlçatan olmaq və vəziyyətin həllinə vaxt ayırmaqdır.

**Nəfəs almağı unutmayın.** Ümidsizlik və narahatlıq çox zaman necə addım atmalı olduğumuzu bizə unutdura bilir. Bu sizinlə baş verdikdə, nəfəs məşqləri edin. Bütün enerjinizi nəfəsinizə kökləməyə çalışın, gözlərinizi bağlayın və şüurunuzu rahat vəziyyətə gətirin. Bu, sakitləşməyinizə kömək edəcək.

**Dəstək istəyin.** Danışa bildiyiniz və necə hiss etdiyinizi bölüşə bildiyiniz, sizə yaxın birindən dəstək istəyin. Şəxsi dəstək və motivasiya davam etmək üçün iki çox vacib elementdən biridir.

**Siz tək deyilsiniz.** Siz öz fəaliyyətiniz zamanı, xüsusilə başlanğıcda özünüzü tək hiss edə bilərsiniz. Hər zaman yadda saxlamaq vacibdir ki, eyni şeyi edən çox sayda gənclər vardır. Siz onların hekayələrini oxuya və hətta onlarla əlaqə saxlaya bilərsiniz. Siz, həmçinin bu təcrübələri bölüşə biləcəyiniz dialoq platforması yarada bilərsiniz.

**Unutmayın ki, siz digərlərinin çiyni üzərində dayanan bir hərəkatın bir hissəsisiniz.** Keçmişdə gənclər və yeniyetmələrin göstərdikləri səylər bu gün sizin fəallığınızı dəstəkləyən irəliləyişlərə gətirib çıxarıb. Görülməli işlərin miqyası sizi qorxutmasın. Sadəcə, özünüz üçün təyin etdiyiniz hədəflərə doğru irəliləyin. Platformanı adekvat şəkildə təmsil edin ki, o, vaxt keçdikcə dayanıqlığını qorusun və gələcək nəsilləri daha da geniş imkanlarla təmin etsin.

**Bütün məsuliyyəti üzərinizə götürməyin.** Missiyanı siz irəli aparırsınızsa, sizə elə gələ bilər ki, hər şeyi siz etməlisiniz, lakin bütün məsuliyyəti üzərinizdə götürməli olmadığınızı öyrənməlisiniz. Siz komanda qura və birlikdə işləyə bilərsiniz. Hər kəs missiya üçün faydalı olacaq bacarıq və qabiliyyətlərə malikdir.

[3] Clayton, S, et al., 'Mental Health and Our Changing Climate: Impacts, Implications, and Guidance', American Psychological Association, and ecoAmerica, Washington, D.C., 2017, <https://www.apa.org/news/press/releases/2017/03/mental-health-climate.pdf>, baxış tarixi: 15 may

**Mövcud resurslar.** Unutmayın ki, iqlim fəallığı missiyanızda köməyinizə çata biləcək müxtəlif resurslar mövcuddur. Siz UNICEF-in internet saytına daxil ola və ya onların ölkə nümayəndəliklərinə yaxınlaşa bilərsiniz. Onlar hətta sizi digər gənclərlə əlaqələndirməklə sizə dəstək ola bilərlər. Ümumdünya Səhiyyə Təşkilatının resurslarına da baxa bilərsiniz.

**Dincəlmək və istirahət üçün yaranan imkanlardan istifadə edin.** Bu cür imkanlar uşaq və yeniyetmələrin hüquqdur. Uzun, aktiv bir gündən sonra  sevimli hobbilərinizlə məşğul olmaq üçün bir mühitinizin olması vacibdir. Açıq havada dostlarınızla da vaxt keçirə bilərsiniz. Gülmək və əyləncəli vaxt keçirmək həmişə sağlamlığa töhfə verir.

**Fəaliyyətinizi şəxsi həyatınızdan ayırın.** Şəxsi həyatınıza və inkişafınıza köklənməyiniz vacibdir. Həyatınızın digər sahələri ilə məşğul olarkən, fəallıq barədə düşünməməyə çalışın.

**Peşəkar yardım.** Peşəkar yardım almaq təbiidir, çünki bu, psixi sağlamlığı ön plana çıxarır.



# Əlavə resurslar

"Təşviqat Alətləri Dəsti: İdeyalar, alətlər və ilhamverici hekayələrlə doludur. Bura daxil olan resurslar konkret və effektiv təşviqat fəaliyyətlərini həyata keçirmək üçün faydalı ola bilər. Bu, spesifik olaraq təhsil hüququ üçün lobbiçilik etmək üçün hazırlansa da, ideyaların çoxu iqlim tədbirləri üçün də faydalıdır. İspan, İngilis və fransız dillərində mövcuddur.

Gənclər üçün İqlim Dəyişmələri üzrə Alətlər Dəsti: İcmanın birgə maarifləndirilməsi vasitəsilə bu boşluğu aradan qaldırmaq üçün səy göstərən fəalları resurslarla təmin etməyi hədəfləyir. İngilis dilində mövcuddur.

İqlim dəyişmələri: Gənclər üçün Fəaliyyət Bələdçisi: Daha çox insanı iqlim dəyişmələri ilə bağlı addımlar atmağa ruhlandırmaq, məlumatlandırmaq və cəlb etmək məqsədi daşıyır. Portuqal və ingilis dillərində mövcuddur.

Cəlb edilmək və eşidilmək! Yeniyetmələrin iştirakı və vətəndaş iştirakına dair rəhbər qaydalar: Yeniyetmələrin iştirakı və vətəndaş iştirakının mahiyyəti, yolları və səbəbləri barədə məlumatları təmin edir. İngilis və İspan dillərindədir.

Plan 12: Bu, layihələrin yaradılması və gücləndirilməsi üsullarını öyrənməyə imkan verən dörd moduldan ibarət kursdur. Əgər siz icma səviyyəsində bir iqlim fəaliyyəti layihəsi hazırlamaqda maraqlısınızsa, bu faydalı ola bilər. İspan dilindədir.

Gənclərin Səsi: Gənclər tərəfindən gənclər üçün yaradılmış rəqəmsal icmada gənclər müxtəlif məsələlər, əsasən də iqlimlə bağlı fəaliyyətlə bağlı məlumat və təcrübələri bölüşə bilərlər. İqlim dəyişmələri ilə bağlı mövzularda gənclər və yeniyetmələr tərəfindən yazılmış məqalələri tapa bilərsiniz. İngilis, İspan, Ərəb və Fransız dillərindədir.

Gənclərin Təşviqatı üçün Bələdçi: Bu bələdçi sırf təşviqatla bağlıdlr (lakin siz yeni başlayırsınızsaç istifadə edə biləcəyiniz şeylər çoxdur!). Bu, faktların araşdırılması, planlaşdırma və aktivləşdirmə prosesi, eləcə də siyasətlərin hazırlanmasında iştirak və həyat tərzi ilə bağlı fərdi seçimlərin edilməsində sizə istiqamət verir. İngilis, fransız və portuqal dillərində mövcuddur. Hazırki məqamda (2021-ci ilin sentyabr ayında) ispan dilində versiyası hazırlanmışdır."

# Mənbələr


América Solidaridad İnternacional and United Nations Children's Fund, 'Plan 12: el curso', AS and UNİCEF, <https:// curso.accionconcausa.com/app/collection/curso-plan-12>, baxış tarixi: 10 iyun 2021.

América Solidaria İnternacional, 'Manual de incidencia juvenil', AS, Washington D.C., 2020, <https:// drive.google. com/file/d/1A-OwWvcQqİciNz8uYZybNKxv9KyxlİZp/view>, baxış tarixi: 26 may 2021.

Clayton, S., et al., 'Mental Health and Our Changing Climate: İmpacts, İmplications, and Guidance', American Psychological Association and ecoAmerica, Washington, D.C., 2017, <www.apa.org/news/ press/releases/2017/03/ mental-health-climate.pdf>, baxış tarixi 15 may 2021.

Dirección de Cambio Climático, Ministerio de Ambiente y Energía and Programa de las Naciones Unidas para el Desarrollo, 'Guía para realizar conversaciones climáticas', San José, 2021, <https:// cambioclimatico.go.cr/wp-content/ uploads/2021/02/CC-Guia-Conversaciones-Climaticas-Version- Digital.pdf>, baxış tarixi 28 may 2021.

ENAJAMUNDO and Red Regional de Cambio Climático y Toma de Decisiones, 'Acción climática local: una guía para jóvenes de América Latina', LatinClima, 2020, <https://latinclima.org/documentos/accion- climatica-local-una-guia-parajovenes-de-america-latina>, baxış tarixi: 25 may 2021.

United Nations Children's Fund, 'Engaged and Heard! Guidelines on adolescent participation and civic engagement', UNİCEF, New York, 2020, <www.unicef.org/lac/en/reports/engaged-and-heard>, baxış tarixi: 15 aprel 2021.

Greenpeace, 'Storytelling guide', Greenpeace, 2021, <https://storytelling.greenpeace.org/storytelling- guide/>, baxış tarixi: 5 iyun 2021.

Live & Learn Environmental Education and İnternational Union for Conservation of Nature and Natural Resources, 'Climate change toolkit for students and youth', Live & Learn Environmental Education, Malé, 2011, <https:// livelearn.org/what/resources/climate-change-toolkit-students-and-youth>, baxış tarixi: 10

iyun 2021. World Health Organization, 'Doing What Matters in Times of Stress: An İllustrated Guide', WHO, Geneva,

2020,
<https://www.who.int/publications/i/item/9789240003927>, baxış tarixi: 10 iyun 2021. Orygen, 'A global youth mental health advocacy toolkit', Orygen, 2020, <https://www.orygen.org.au/ About/OrygenGlobal/Files/Orygen-WEF-advocacy-toolkit>, baxış tarixi: 19 iyun 2021.

Paz y Esperanza, 'Manual sobre incidencia pública para activistas cristianos que luchan por la justicia', Paz y Esperanza, Lima, 2012, <https://caritascolombiana.org/wp-content/uploads/2016/10/Manual- sobre-incidencia-p%C3%BAblica.pdf>, baxış tarixi: 12 iyun 2021.

Plan İnternational, 'Youth an Advocacy Toolkit', Plan İnternational, 2014, <https://plan-international.org/ publications/ advocacy-toolkit>, baxış tarixi: 12 aprel 2021.

TakingİTGlobal, 'Climate change: youth guide to action', TakingİTGlobal, Toronto, 2007, <http://tig.phpwebhosting. com/guidetoaction/Climate_Guide_to_Action_en.pdf>, baxış tarixi: 13
iyun 2021

United Nations Children's Fund, 'Outright speak out on children's rights: young people's activity pack', UNİCEF, 2019, <https://www.unicef.org.uk/rights-respecting-schools/wp-content/uploads/ sites/4/2019/09/01. Young-Peoples-Outright-Pack-2019-_v4.pdf>, baxış tarixi: 18 iyun 2021.

United Nations Children's Fund, 'Youth Advocacy Guide', UNİCEF, 2019, <https://www.voicesofyouth.org/ youthadvocacy>, baxış tarixi: 10 aprel 2021

